# Ümumi məlumat

XX əsrin sonunda öz tarixi torpaqlarının bir hissəsində yenidən müstəqilliyə qovuşmuş Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Şimaldan - Baş Qafqaz dağları, qərbdən - Göyçə gölü hövzəsi də daxil olmaqla Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdən - Xəzər dənizi, cənubdan isə Sultaniyyə- Zəncan-Həmədan hüdudları ilə əhatə olunan tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Hazırda Anadolu türklərindən sonra dünyanın ikinci böyük türk xalqı olan Azərbaycan xalqı bu ərazidə-tarixi Azərbaycan torpaqlarında zəngin və özünəməxsus bir mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Bu ərazidə zaman keçdikcə Azərbaycanın Şirvan, Muğan, Şəki, Qarabağ, Naxçıvan, İrəvan və b. tarixi-coğrafi bölgələri təşəkkül tapmışdır. Rusiya ilə İran arasında bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə tarixi Azərbaycan torpaqları iki imperiya arasında bölüşdürülmüşdür. Bundan sonra tarixi Azərbaycan torpaqları ilə bağlı Şimali Azərbaycan (Rusiya və ya Sovet Azərbaycanı) və Cənubi Azərbaycan (İran Azərbaycanı) kimi siyasi-coğrafi məfhumlar yaranmışdır: Türkmənçay müqaviləsindən dərhal sonra Rusiya imperiyası Şimali Azərbaycanın qərb torpaqlarının erməniləşdirilməsi siyasətini həyata keçirmişdir. Nəticədə Şimali Azərbaycanın qərb torpaqlarında - keçmiş İrəvan xanlığının ərazisində Cənubi Qafqazda ilk dəfə olaraq erməni dövləti yaradılmışdır. Məhz bu prosesin gedişində Azərbaycanın Ermənistan Respublikası yaradılmış tarixi-coğrafi ərazisi ilə bağlı daha bir coğrafi-siyasi anlayış - Qərbi Azərbaycan (İrəvan bölgəsi) anlayışı yaranmışdır.

Qərbi Azərbaycan anlayışı tarix və coğrafiya baxımından Cənubi Qafqazın mərkəzi hissəsində yerləşən, əsrlər boyu Azərbaycan türk etnosunun kompakt yaşadığı geniş bir arealı əhatə edir. Bu areala İrəvan xanlığının ərazisi, Göyçə gölü hövzəsi, Zəngəzur mahalı, Dərələyəz, Abaran, Vedibasar, Sürməli və digər tarixi bölgələr daxil olmuşdur. Mənbələrdə bu ərazilər müxtəlif dövrlərdə Arran, Azərbaycan vilayətləri və ya konkret inzibati-siyasi vahidlər kimi qeyd edilmişdir.

Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın qədim, təbiətinə görə ən zəngin bölgələrindən biridir. Keçmişdə Azərbaycanın şimalı ilə cənubunu, bütün Qafqazla Yaxın Şərqi birləşdirən mühüm karvan yollarının üstündə yerləşən, hazırda isə şimaldan Gürcüstan, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, qərbdən Türkiyə, cənubdan İranla həmsərhəd olmaqla 29,8 min km$^2$ sahəni əhatə edən bu diyar indi Ermənistan Respublikası kimi tanınsa da, onun ərazisi qədim Türk-Oğuz yurdu, tarixi Azərbaycan torpağıdır. Bu faktı həmin ərazidəki saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri – qədim yaşayış məskənləri, kurqanlar,

qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, at-qoç heykəlləri, məscid, pir və ocaqlar da təsdiq edir.

"Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi Azərbaycanla bağlıdır. Dastanda adı çəkilən Şirökuvən, Altuntaxt, Göyçə gölü oğuz qəhrəmanlarının doğma yurdları olub və bu ərazilər indi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi daxilində yerləşir. Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olub, ermənilər isə xaricdən bu ərazilərərə köçürülmüşdür. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərindən 90 faizdən çoxunu türk mənşəli sözlər təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək erməniləşdirilib.

Alimlər tərəfindən Ermənistan SSR əhalisinin say dinamikası, onun tərkibində azərbaycanlıların və ermənilərin xüsusi çəkisi araşdırılmış, konseptual əhəmiyyət daşıyan dövr bölgüsü aparılmış və əhalinin siyasi tarixi bu faktlara əsasən öyrənilmişdir. 1917-ci ildə Qərbi Azərbaycan ərazisində yaşayan əhalinin ümumi sayı 212458 nəfər olmuşdur. Onlardan 129586 (61%) nəfər azərbaycanlı, 80530 (38%) erməni idi. 1987-1989-cu illərdə Ermənistan SSR-də baş verən hadisələr zamanı ölkə ərazisində yaşayan azərbaycanlıların əksəriyyəti öz yurd-yuvalarından qovulmuşlar. 1987-ci ildə həyata keçirilən siyahıyaalınmada əhalinin ümumi sayı 3280000 nəfər olmuşdu, onlardan 210000 (6,4%) nəfər azərbaycanlı, 3070000 (93,6%) nəfər erməni, 1989-cu ildə isə əhalinin ümumi sayı 3283000 nəfər olmuşdu, onlardan 1500 (0,001%) nəfər azərbaycanlı, 3281000 (99,9%) nəfər erməni idi. Ermənilərin şovinist, etnik təmizləmə siyasəti nəticəsində Qərbi Azərbaycandakı Azərbaycan izləri dağıdılmış və yerlə-yeksan edilmiş, buranın əzəli sakinləri olan azərbaycanlılara qarşı ermənilər tərəfindən dəfələrlə soyqırımlar törədilmiş, onların izlərinin silinməsi siyasəti həyata keçirilmişdir.

## İrəvan xanlığı

XVIII əsrin ortalarında tarixi Azərbaycan torpaqlarında yaranan İrəvan xanlığı Azərbaycanın Ağrı (Ararat) dağı ilə Alagöz (Ələyəz) dağı arasında qalan və Araz çayının hər iki sahilində yerləşən ərazini əhatə etmişdir. İrəvan xanlığı şimaldan Pəmbək əyaləti, Şəmşəddil, Qazax sultanlıqları və Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənubdan Xoy, Maku xanlıqları və Bayazid paşalığı ilə, qərbdən Qars paşalığı və şimali-qərbdən Şörəyel sultanlığı ilə həmsərhəd idi. İrəvan xanlığının ərazisi təqribən 23,8 min kv. km olmuşdur. Təsvir olunan ərazi XV əsrin əvvəllərindən başlamış, İrəvan xanlığının yaranmasınadək olan dövrdə Qaraqoyunlu tayfa birliyinə daxil olan Səədli tayfasının başçıları

tərəfindən idarə olumuşdur. Yerləşdiyi coğrafi mövqeyinə görə Çuxur Səəd - yəni Səədin Çuxuru adlandırılmışdır.

1501-ci ildə Səfəvilər dövləti yarandıqdan sonra Azərbaycan vilayəti inzibati-ərazi bölgüsü baxımından 4 bəylərbəyiliyə bölünmüşdü və Çuxur-Səəd bəylərbəyliyi onlardan biri idi. Bəylərbəyliyin mərkəzi İrəvan şəhəri idi və o, İrəvan bəylərbəyiliyi kimi də tanınırdı. Çuxur-Səəd bəylərbəyliyi müəyyən vaxtlarda Osmanlı Türkiyəsinin tərkibində olmuş və İrəvan əyaləti statusu ilə tanınmışdır. 1590-cı il tarixli "Müfəssəl dəftər"ə görə, İrəvan əyaləti 10 nahiyəsi olan İrəvan livasından, 16 nahiyəsi və bir qəzası olan Naxçıvan livasından ibarət idi.

1728-ci ildə tərtib edilən "İrəvan əyalətinin icmal dəftəri"nə görə əyalət ərazi-inzibati bölgüsü baxımından aşağıdakı hissələrə bölünmüşdü: İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göycə, Dərələyəz, Məzrəə, Sürməli, İğdır, Aralıq, Şərur nahiyələri, Şörəyel (Şürəgəl) və Naxçıvan sancaqları. Nadir şahın hakimiyyəti dövründə (1736-1747) İrəvan vilayəti Azərbaycan bəylərbəyliyinin tərkibində olmuşdur. Nadir şahın öldürülməsindən sonra Afşarlar imperiyası dağılmış, müstəqil xanlıqlar yaranmışdı. Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığı da inzibati-ərazi bölgüsü baxımından mahallara, mahallar isə öz növbəsində kəndlərə bölünürdü. İrəvan şəhəri ayrıca inzibati-ərazi vahidi kimi götürülürdü. Xanlığın mərkəzi İrəvan idi. İrəvan qalasının özü qala-şəhər kimi möhtəşəm memarlıq kompleksi idi.

İrəvan xanlığının və İrəvan şəhərinin idarəçilik sistemi həmin dövrdə mövcud olan digər Azərbaycan xanlıqlarının idarəçilik sisteminin bənzəri idi. Xanlıqda rəsmi dövlət dili Azərbaycan türkcəsi idi, rəsmi yazışmalarda isə zəruri olduqda fars dilindən də istifadə edilirdi. Zəngin dövlətçilik ənənələri formalaşmış İrəvan xanlığında idarəçilik sisteminin başında bir qayda olaraq azərbaycanlılar dururdular. İrəvan xanlığının ərazisində yaşayan azsaylı ermənilər xanlığın idarəçiliyində təmsil olunmurdular, onlar yalnız və yalnız adi vergi ödəyiciləri idilər. Suveren dövlətçilik atributlarına malik olan, tipik feodal dövləti hesab olunan İrəvan xanlığında, müasir terminlərlə ifadə etsək, ali hakimiyyət – qanunverici, icraedici və məhkəmə hakimiyyəti xana (yaxud sərdara) məxsus idi. Xanın özü isə bir qayda olaraq mərkəzi hakimiyyət, başqa sözlə şah tərəfindən təyin edilirdi.

Ölkənin taleyi ilə bağlı olan ən mühüm məsələlər barədə xanın təkbaşına qərar çıxarmaq hüququ var idi. Corc Burnoutyan yazır ki, xan məsuliyyəti mülki, hərbi və dini sahələr üzrə bölərək, öz idarəetmə aparatını mərkəzi hökumət formasında qurmuşdu. Xanın ailəsi və ya sarayı ayrıca bir qurum kimi fəaliyyət göstərirdi və onu dördüncü idarəetmə sahəsi hesab etmək olardı. Xanlığın təsərrüfat işlərini xandan sonra ikinci şəxs hesab edilən vəzir idarə edirdi. Qeyri-məhdud səlahiyyətlərə malik olmasına baxmayaraq, xanın yanında xüsusi məşvərətçi şura - divan və yaxud xan şurası fəaliyyət göstərirdi. Divanın tərkibi xan və vəzir də daxil

olmaqla, sarayda mühüm vəzifə tutan şəxslərdən və şeyxülislamdan ibarət idi. Divana bir qayda olaraq xana ən yaxın olan və nüfuzlu şəxs hesab edilən divanbəyi başçılıq edirdi. Xanın divanında yüzə qədər məmur çalışırdı. Xan sarayında vəzirlə birlikdə maliyyə işlərinə baxan sərkər-ali, xanın saray təsərrüfatını idarə edən eşikağası, xəzinəyə başçılıq edən xəzinədar, xəzinənin mədaxil və məxaricinə nəzarət edən sandıqdarağası, məhsul yığılan anbarlara nəzarət edən anbardarağası, saray mühafizəçilərinin başçısı qoruqbaşı və digər vəzifələr də var idi. Mühafizə xidməti xanın buyruqlarının vaxtında yerinə yetirilməsini təmin edir, ölkədə qayda-qanun yaradılmasında mühüm rol oynayırdı. Xanın əmrlərinin və məhkəmə qərarlarının icrası ilə müsaillər məşğul olurdular. Məhsulla alınan vergilərin yığılması ilə yerlərdə darğalar məşğul olurdu.

İrəvan şəhəri bir mərkəz olaraq xanılığın tərkibinə ayrıca inzibati vahid kimi daxil edilmişdi. Şəhər rəisi vəzifəsini xan tərəfindən təyin edilən naib idarə edirdi. Naib təsərrüfat və inzibati işlərlə məşğul olur, vergilərin vaxtında toplanılmasına nəzarət edirdi. Xan müvəqqəti olaraq şəhəri tərk etdikdə bütün şəhərin idarəsi naibin əlində cəmləşirdi. İrəvan qala-şəhər olduğundan, qala daxilində asayişi qorumaq, onun müdafiəsinə nəzarət etmək qalabəyinin vəzifəsi idi. Şəhərdə asayişin qorunmasına darğa (yəni polis rəisi) nəzarət edirdi. Yüzbaşılar, onbaşılar (yasavullar) darğaya tabe idilər. Mahalları idarə edənlər mirbölük adlanır, xan (yaxud sərdar) tərəfindən təyin edilirdilər. Mirbölüklər nüfuzlu bəylərin və digər yüksək təbəqənin nümayəndələri arasından seçilirdi. Kəndləri isə kəndxudalar və yaxud koxalar idarə edirdilər. Onlar da öz növbəsində mirbölüklər tərəfindən təyin olunurdular. Xarici dövlətlərdən gələn yüksək səviyyəli qonaqlar İrəvan xanı tərəfindən təmtəraqla qarşılanır və rəsmi mərasimlə yola salınırdı.

Xan müstəqil xarici siyasət yürüdür, zəruri hesab etdikdə qonşu dövlətlərə müharibə elan edir, öz qoşununu müttəfiqlərinin köməyinə göndərirdi. Xanın nizami qoşunu iki sərbaz alayından, süvarilərdən, bir neçə 6 funtluq səhra toplarından və zəmbərəklərdən (yəni dəvə üstündə quraşdırılmış falkonetləri – kiçik topları) ibarət idi. Lazım gəldikdə, xanlığın ərazisində yaşayan və əli silah tuta bilən hər bir şəxs ucdantutma orduya cəlb edilirdi. Bunlardan əlavə qala bürcləri üzərində xüsusi altilleriya topları mövcud idi. Sonuncu İrəvan xanı Hüseynqulu xanın dövründə xanın qardaşı Həsən xan ali baş komandan sifətilə orduya sərkərdəlik edirdi.

Bütün müsəlman dövlətlərində olduğu kimi, İrəvan xanlığında da şəriət məhkəməsi mövcud idi. Şeyxülislamın, qazının və yüksək rütbəli din xadimlərinin daxil olduğu şəriət məhkəməsi mülki iddialara baxırdı. İrəvan xanlığında təhsil sistemi digər Azərbaycan xanlıqlarında olduğu kimi idi. Təhsillə əsasən din xadimləri məşğul olurdular. Hər bir məscidin nəzdində mədrəsə fəaliyyət göstərirdi.

1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığını özündən asılı vəziyyətə salmışdı. Qacar, eyni zamanda Şörəyel və Pəmbək ərazilərini xüsusi fərmanla İrəvan xanı Məhəmməd xanın tabeçiliyinə vermişdi. İrəvan xanlığının Rusiya qoşunları tərəfindən 1827-ci ildə işğalı ərəfəsində xanlığın inzibati-ərazi bölgüsü 15 mahaldan və xanlıqdan yarıasılı Şörəyel sultanlığından ibarət olmuşdur. Mahalların adları belə idi: 1.Qırxbulaq, 2.Zəngibasar, 3.Gərnibasar 4.Vedibasar, 5.Körpübasar, 6.Sərdarabad, 7.Talın, 8.Səədli, 9.Abaran, 10.Seyidli-Ağsaqqallı, 11.Dərəçiçək, 12.Göycə, 13.Şərur, 14.Dərəkənd-Parçenis, 15. Sürməli.

Mahallardan yalnız ikisi - Dərəkənd-Parçenis və Sürməli mahalları Araz çayının sağ sahilində yerləşirdi. Mahalların təşkili zamanı suvarma sistemlərinin mövcudluğu, kəndlərin çay hövzələrinə yaxınlığı əsas meyar kimi götürülürdü. İrəvan xanlığının əhalisinin etnik tərkibini oğuz-türk boyları təşkil etmişdir. Tarixi qaynaqlar göstərir ki. Xanlığın əhalisinin əsasını qaraqoyunlu, ağqoyunlu və qızılbaş tayfa birliklərinə daxil olan bayat, əfşar, səədli, baharlı, bayandur, qaçar, şamlı, rumlu, ustaclı, təkəli, ayrımlı, muğanlı və s. kimi tayfalar təşkil etmişlər.

Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin himayəsindən sui-istifadə edən Üçkilsə katolikosları və onların Avropadakı havadarları Azərbaycanın olduqca münbit bu ərazisində ermənilərin məskunlaşmasına başçılıq edirdilər. Xristian dövlətlərinin və missionerlərinin vəsaiti hesabına varlanan erməni kilsələri yerli müsəlman hakimlərdən yeni-yeni torpaqlar alırdılar. Bu yollarla ermənilər Azərbaycan torpaqlarında özlərinə yeni yaşayış məskənləri yaradırdılar.

Tarixi ədəbiyyatda İrəvan xanlığının əhalisi haqqında səhih məlumatların olmaması həmin ərazidə gedən çoxsaylı müharibələrlə bağlıdır. İrəvan xanlığını ələ keçirmək uğrunda Osmanlı imperiyasının Səfəvilər və Əfşarlar imperiyaları ilə apardığı müharibələr əhalinin etnik tərkibinə ciddi təsir göstərmişdir. 1801-ci ildə rus qoşunlarının İrəvan xanlığının şimal sərhədində yerləşən Pəmbək əyalətini, 1804-cü ildə Şörəyel sultanlığını işğal etməsindən sonra azərbaycanlıların deportasiyası və ermənilərin həmin ərazilərə kütləvi axını başlanmışdır. Rus qoşunlarının Pəmbək və Şörəyel əyalətlərini işğalınadək bölgədə mövcud olan 200 azərbaycanlı yaşayış məntəqəsindən 190-ı XIX əsrin əvvəlində azərbaycanlılardan təmizlənmişdi. 1813-cü ildə imzalanan Gülüstan müqaviləsi ilə İrəvan xanlığından Rusiyanın tabeçiliyinə keçən ərazilərdə, xüsusən də müharibə nəticəsində boşalmış azərbaycanlı kəndlərinin əksəriyyətində ermənilər məskunlaşmışdı. Həmin müddətdə təkcə Pəmbək-Şörəyel bölgəsinə Türkiyədən 32 mindən artıq erməni köçürülmüşdü.

İngiltərənin Qacarlar İranındakı səfirliyinin katibi Ceyms Morier 1813-cü ildə İrəvanda olmuş, xanlığın ərazisində təqribən 100 min nəfər əhalinin yaşadığını göstərmişdir. Bu məlumat rus müəlliflərinin əsərlərində də öz təsdiqini tapmişdır. XIX əsrin əvvəllərində Rusiya xarici işlər nazirliyinin Asiya departamentinin

direktoru olmuş Semyon Bronevskinin verdiyi məlumata görə, İrəvan xanlığında 18 min ailə yaşamışdır. İrəvan xanlığının əhalisi haqqında həqiqətə yaxın məlumatı 1829-1832-ci illərdə xanlığın ərazisində kameral siyahiyaalma keçirən İvan Şopenin 1852-ci ildə Sankt-Peterburqda çap edilən "Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи" kitabından əldə etmək olar. İ.Şopeni müşayiət edən tərcüməçinin erməni olması əhalinin milli tərkibinin ermənilərin xeyrinə qeydə alınmasına təsir göstərmişdir. Həmçinin kitabın əvvəlində İ.Şopenin verdiyi tarixi xülasəni əsasən erməni müəlliflərinin əsərlərinə istinadən qələmə alması bəzi məqamlarda müəllifin obyektiv nəticə çıxarmasına mane olmuşdur. Bununla belə, İ.Şopenin əsəri İrəvan xanlığı haqqında müfəssəl məlumat verən əsər hesab edilməlidir.

Müəllifin verdiyi məlumata görə, işğal ərəfəsində İrəvan xanlığının ərazisində 831 kənd mövcud olmuşdur ki, onlardan 310-u müharibə nəticəsində dağıdılmışdı. Hər kənddə orta hesabla 25 ailə, hər ailədə 5-6 nəfər hesabı ilə götürdükdə, dağıdılmış 310 kənddə təqribən 43 mindən artıq əhalinin yaşamış olduğunu müəyyən etmək olur. İ.Şopenin məlumatına görə, işğaldan sonra İrəvan şəhərində 7331 nəfər, mahallarda isə 57364 müsəlman qeydə alınmışdır. Əslində isə İrəvan şəhərində işğaldan öncə 16 min nəfər müsəlman yaşamışdır. Bu rəqəmlərin üzərinə dağıdılmış kəndlərdə yaşamış olan 43 min nəfəri də əlavə etsək, onda İrəvan xanlığında işğaldan öncə azı 116 min nəfər müsəlman yaşadığı bəlli olur. Ermənilərə gəlincə, İ.Şopen mahallarda 20073 nəfər, İrəvan şəhərində isə 2369 nəfər yerli erməninin yaşadığını yazır: cəmisi 22442 nəfər. Əslində isə həmin 22442 nəfər erməninin bir çoxu yerli sakin deyil, 1804-cü ildən bəri xanlığın ərazisində gedən müharibələrdən sonra Türkiyə ərazisindən gəlib regionda məskunlaşmışdı. Bununla belə, faizlə ifadə etsək, işğaldan öncə ermənilər xanlığın ümumi əhalisinin təqribən 19 faizini təşkil etmişdir.

Erməni əsilli ABŞ tədqiqatçısı Georgi Burnoutyan da İ.Şopenin kameral siyahıyaalmasının nəticələrini təhlil edərək belə qənaətə gəlmişdir ki, işğaldan öncə İrəvan xanlığının ərazisində 20 minə yaxın erməni yaşamışdır ki, bu da ümumi əhalinin 20 faizini təşkil etmişdir.

İ. Şopenin İrəvan xanlığının əhalisinin müxtəlif təbəqələri haqqında verdiyi məlumat xanlığın köklü əhalisinin kimlərdən ibarət olması mənzərəsini ortaya qoyur. Kameral siyahıyaalmanın nəticələri göstərir ki, İrəvan xanlığı ərazisində zadəgan sayılan 270 xan və bəy müsəlman ailəsi, 30 erməni məlik və ağa ailəsi qeydə alınmışdı. Deməli, erməni zadəganları xanlığın ərazisindəki zadəganların cəmisi 10 faizini təşkil etmişdi.

Lakin İrəvan xanlığının 1827-ci ildə rus qoşunları tərəfindən işğalından sonra da bir müddət həmin ərazidə azərbaycanlılar sayca ermənilərdən üstün olmuşdur. Yalnız Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələri əsasında İran və

Türkiyədən ermənilərin kütləvi surətdə İrəvan xanlığı ərazisinə köçürülməsindən sonra demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişmişdir.

Çar Rusiyasının köçürmə siyasəti nəticəsində ermənilər kompakt şəkildə əsasən azərbaycanlı yaşayış məntəqələrində məskunlaşdırılmışdılar. Bunun nəticəsində azərbaycanlılar ermənilərdən sayca azlıq təşkil etsə də, azərbaycanlı yaşayış məntəqələri erməni yaşayış məntəqələrindən sayca çox idi. 1865-ci ilin məlumatına görə, İrəvan quberniyasında mövcud olan 1198 kəndə 694-də müsəlmanlar, 413-də ermənilər, 10 kənddə ruslar, 91 kənddə isə ermənilərlə müsəlmanlar qarışıq şəkildə yaşayırdılar. Azərbaycanlılar İrəvan şəhərini üzük qaşı kimi əhatə edən və quberniyanın nüvəsi hesab olunan İrəvan qəzasında işğaldan sonra da sayca çoxluq təşkil edirdilər. 1865-ci ildə qəzada qeydə alınan 79661 nəfər əhalinin 46617 nəfərini azərbaycanlılar (tatarlar), 26709 nəfərini isə ermənilər təşkil edirdi. Başqa sözlə, əhalinin 58,5 faizini azərbaycanlılar, 33,5 faizini isə ermənilər təşkil edirdilər.

XX əsrin əvvəllərində azərbaycanlılar İrəvan qəzasında hələ də əhalinin əksəriyyətini təşkil edirdi. Həmin vaxt İrəvan qəzasında yaşayan 121809 nəfər əhalinin 65871 nəfərini azərbaycanlılar, 45624 nəfərini ermənilər, 7865 nəfərini kürdlər, 869 nəfərini isə ruslar təşkil edirdi. Faiz nisbəti ilə əhalinin 54, 1 faizini azərbaycanlılar, 37,5 faizini ermənilər, 6,5 faizini kürdlər, 0,7 faizini isə ruslar təşkil edirdi.

Yuxarıda sadalanan faktlar bir daha sübut edir ki, İrəvan xanlığının yerli əhalisi yalnız Azərbaycan türklərindən ibarət olmuşdur, ermənilər isə orta əsrlərdən etibarən müxtəlif yollarla gəlib həmin ərazidə məskunlaşmışlar. Erməni tarixçilərinin İrəvan xanlığının ərazisinin qədim erməni torpağı, əhalisinin əksəriyyətinin isə erməni olması haqında iddialarının da cəfəngiyatdan başqa bir şey olmadığı yuxarıda göstərilən rəqəmlərdən aydın görünür. Bütün yuxarıda qeyd edilənlərdən belə qənaət hasil olur ki, İrəvan xanlığında dövlətçilik ənənələrinə əsaslanan kifayət qədər təkmil idarəçilik sistemi mövcud olmuşdur.

## Coğrafiyası

Qərbi Azərbaycanın inzibati-coğrafi sərhədlərinin ümumi uzunluğu 1570 km-dir. Bu hüdudlar Şahdağ silsiləsi-Qarabağ dağlıq yaylası boyunca şərqi Azərbaycanla 996 km, cənubdan cənubi Azərbaycanla 44 km (Araz çayı boyunca), Türkiyə Cumhuriyyəti ilə (İqdır və Qars vilayətləri ilə həmsərhəd 311 km, Gürcüstan Respublikası ilə (dağ Borçalı yaylası ilə) 219 km məsafədə qonşudur. Ərazinin 4,7%-i su, 95,3%-i quru hissələrindən ibarətdir.

Qərbi Azərbaycanın bütün təbii kompleksi həm plan, həm də şaquli cəhətdən əhəmiyyətli dəyişikliklərə məruz qalır. Dağətəyi ərazilərdən yüksək dağlara doğru

aşağıdakı təbii qurşaqlar əvəz olunur: səhra-yarımsəhra, quru dağ-çöl, dağ-çöl, dağ-meşə, alp inival. Şimal-şərq və cənub-şərq rayonlarında iqlimin mülayimliyinə görə meşə landşaftları üstünlük təşkil edir. Qərbi Azərbaycanda aşağıdakı təbii bölgələr fərqlənir:

**İrəvan-Çuxuru hövzəsi.** Ən böyük ərazi; Arazın sol sahilini və onun qollarını (Türkiyə daxilində sağ sahil) əhatə edir. Hövzənin dibi – Ağrıdağ düzənliyi və dağətəyi səhra-yarımsəhra landşaftları ilə kontinental iqlimi ilə seçilir. Orta dağlarda çöl və alp landşaftları olan tipik vulkanik relyef üstünlük təşkil edir. Təbii şərait istiliksevər bitkilərin (üzüm, şaftalı, ərik, cənub tərəvəzləri) becərilməsi üçün əlverişlidir.

**Şirək.** Çayın yuxarı və orta axınının hövzəsini tutur. Düzkənd; dağ-çöl landşaftları ilə səciyyələnir. Qışlar soyuq, sabit qar örtüyü ilə, yaylar isti olur. Dağ qara torpaq ilə tipik bir vulkanik ərazi, yüksək dağlıq zonada - alp bitkiləri. Taxıl, şəkər çuğunduru becərilir, heyvandarlıq üçün əlverişlidir.

**Loru-Pəmbək.** Pəmbək və digər iki çayın hövzələrini əhatə edir. Quru çöl və meşə landşaftları üstünlük təşkil edir. Mis və polimetal yataqları ilə zəngindir.

**Tavuş** (şimal-şərq) rayonu. Mülayim iqlimi və meşə mənzərələri ilə Loru-Pəmbəyin təbii davamıdır.

**Göyçə gölü.** Gölün nəhəng su səthinin olması ilə dağ-çöl və alp landşaftları olan qapalı hövzə.

**Paşalı.** Ayrı ərazi, çay hövzəsini əhatə edir. Arpa landşaft və təbii şəraitə görə İrəvan-Cuxuryurd hövzəsinə bənzəyir.

**Zəngəzur.** Qərbi Azərbaycan dağlıq ərazilərinə xas olan bütün növ landşaftların təmsil olunduğu, lakin meşə və dağ-çölün üstünlük təşkil etdiyi güclü dağlıq ərazi. Əlvan metal yataqları ilə zəngindir.

Hazırda Qərbi Azərbaycan ərazisinin yalnız 11%-i meşələrlə örtülüdür. Qərbi Azərbaycanın meşələrində 250-dən çox ağac və kol növü bitir. Əsas meşə yaradan növlər meşə sahəsinin 81,3%- ni tutan enliyarpaqlı ağaclardır. Bunlar palıd, fıstıq və vələs cinslərindən olan ağaclardır. Meşə sahəsinin təqribən 8%-ni şam ağacları tutur: çöllər və otlaqlar ərazinin 18%-dən 30%- ə qədərini tutur.

Qərbi Azərbaycanda 150 ailədən 3500-ə yaxın bitki növü bitir, onlardan 108-ə yaxın növə yalnız Qərbi Azərbaycanda rast gəlinir. Kiçik dağlıq Qərbi Azərbaycanda Avropa hissəsinin geniş ərazisinə nisbətən iki dəfə çox torpaq növü, bir neçə daha çox bitki növü və heyvanlar aləminin nümayəndələrinin heç də az olmayan növləri var. Loru, Karvansaray, Çəmbərək, Qaraqoyunlu, Şəmşəddin, Barana və Qərbi Zəngəzurun rayonlarının dağ meşələrində palıd, fıstıq, şam, vələs, cökə, ağcaqayın, kül, ağcaqayın bitir. Ağrı vadisinin genişliklərində üzüm bağlarını, qovaq bağlarını, çəmən çöllərini, şaftalı və ərik ağaclarının kolluqlarını, qumlu yarımsəhraları görmək olar. Yazda Qərbi Azərbaycan dağları və vadiləri ecazkar

çiçəklərlə örtülür. İlin bu vaxtında Qərbi Azərbaycan quşbaxışı ilə çəhrayı dağlar məkanı kimi görünür. Qərbi Azərbaycanın təbiəti bir çox bitki növlərinin, o cümlədən əriklərin ata-baba yurdudur: burada yabanı alma, armud, nar, üzüm, əncir, müxtəlif giləmeyvə, qoz bol-bol bitir. Qərbi Azərbaycan qədim zamanlardan Qərbi azərbaycanlıların istifadə etdiyi dərman bitkiləri ilə zəngindir. Qərbi Azərbaycanın faunasına 450 növ onurğalılar, 10 mindən çox növ onurğasızlar, 304 növ quşlar, 24 növ balıqlar, 20 növ ilanlar və bir çox başqa növlər daxildir.

Qərbi Azərbaycan meşələrində cüyür, Suriya ayısı, meşə pişiyi, tülkü, vaşaq, bəbir, Ussuri xallı maral yaşayır. Avropada tanınan quşların demək olar ki, üçdə ikisini Qərbi Azərbaycanda müşahidə etmək olar. Relyef əsasən dağlıqdır, sürətlə axan çaylar və seyrək meşələr var. Sözügedən coğrafiyanın ən yüksək nöqtəsi Alagöz dağı (4090 m), ən aşağı nöqtəsi Debed dərəsidir (375 m). Qərbi Azərbaycan ərazisindən irili xırdalı 9,5 min çay keçir. Onlardan ən böyüyü – Araz (192 km; 1072 km - ümumi uzunluğu) Zaqafqaziyanın ən böyük çayı - Kürün sağ qoludur.

Qərbi Azərbaycanda kənd təsərrüfatı üzrə ümumi məhsul gəlirinin 60%-i bitkiçilikdən, 40%-i isə heyvandarlıqdan əldə olunur. Kənd təsərrüfatı üçün yararlı torpaqların əsas hissəsi Arazboyu, İrəvan Çuxuru və Şirək düzənlikləri ərazisində cəmləşmişdir. Kənd təsərrüfatına yararlı torpaqlar ərazinin 46-47 %-ni, əkin sahəsi isə cəmi 20%-ni təşkil edir. Otlaq və biçənəklər Qərbi Azərbaycanın 28%-ni əhatə edir. Dağlıq relyef Qərbi Azərbaycanda üstünlük təşkil etməsinə baxmayaraq kənd təsərrüfatı üçün ən münasib ərazilər Ağrıdağ, Arazçayı vadisi və Göyçə gölü ətrafı hesab olunur. Bu ərazilərin torpaq-iqlim şəraiti ildə 2-3 dəfə məhsul götürülməsinə imkan verir.

Qərbi Azərbaycan ərazisində 100-ə yaxın göl, o cümlədən Qafqazın ən böyük gölü Göyçə gölü (1276,6 kv.km) var. Ağrıdağ vadisində yağıntının minimum miqdarı ildə 200-250 mm, orta dağlarda 500 mm, yüksək dağlıq ərazilərdə isə 700-900 mm-dir. Qərbi Azərbaycanın çaylarında gəmiçilik üçün imkanlar yoxdur, ona görə də çay sularından əsasən suvarma və su elektrik enerjisi mənbəyi kimi istifadə olunur. Qərbi Azərbaycanın potensial su enerji ehtiyatları 21,8 milyard Kvt/saatdır. İldə 8,6 milyard kilovatsaatdan istifadə etmək texniki cəhətdən mümkündür. Qərbi Azərbaycanın mərkəzi və cənub hissələrinin bir çox ərazilərində yeraltı su axını üstünlük təşkil edir. Ən böyük artezian hövzəsi 29 milyard m3 statik su ehtiyatı olan İrəvan Çuxuru hövzəsidir. Digər hövzələr də əhəmiyyətlidir: Göyçə gölü, Şirək. Müəyyən edilmiş bütün yeraltı hövzələrdə su ehtiyatı 50 milyard m3 olaraq qiymətləndirilir. Vulkanik ərazilərdə yeraltı sular həm şirin, həm də mineral olan çoxsaylı bulaqlar şəklində səthə çıxır. Qərbi Azərbaycanda 8 mindən çox bulaq var.

Qərbi Azərbaycanın ərazisi subtropik zonada yerləşir, lakin dağlıq relyefinə görə müxtəlif iqlim tipləri ilə seçilir. Qərbi Azərbaycanın iqliminə Qara və Xəzər

dənizlərinin, eləcə də quraq İran və Kiçik Asiyanın yüksək dağlıq ərazilərinin yaxınlığı təsir edir. Cənub mövqeyi əhəmiyyətli günəş radiasiyasına səbəb olur.

## Qərbi Azərbaycan toponimləri

Azərbaycanın təbii sərhədləri daxilində olan Qərbi Azərbaycan toponimlərinin XX əsrin 30-40-cı illərində elmi tədqiqata cəlb olunan nümunələri bu regionda yaşayan insanlar qrupunun təsəvvüründəki linqvistik mənzərənin öyrənilməsində xüsusi yer tutması da o rellıqların diqtəsindən xəbər verir. Göyçə gölü, Göyçə və Dərələyəz dağ silsiləsi, Zəngəzur dağları, Araz çayına birləşənə qədər geniş ərazilərdən keçib gələn Arpaçay sahilləri IX-X əsrlər iranlı coğrafiyaşünas Əbül-Qasim İbn Xordadbehin "Yollar və ölkələr haqqında kitab"ında, XII-XIII əsrlər ərəb tarixçi və coğrafiyaşünası Şahabəddin Yaqut əl-Həməvinin "Ölkələr haqqında lüğət"ində, XVI-XVII əsrlər alman səyyahı Adam Olearinin hazırladığı qlobusda, XVIII-XIX əsrlərdə yaşamış Rusiya tədqiqatçıları S.M.Bronevskinin "Qafqaz haqqında yeni coğrafi və tarixi məlumatlar"da, XIX-XX əsr rus tarixçisi Y.A.Poxomovun "Azərbaycan tarixinin qısa kursu" və digər müəlliflərin əsərlərində göstərilən türk mənşəli toponimlər XIX əsrdə çar Rusiyasının sərhədlərinə daxil edilən ərazilərin əsl sahiblərini göstərir. Bu tarixi sənədlərə söykənən etibarlı mənbələr İrəvan quberniyasının 7 qəzasınında, Aleksandropol-Gümrü- mərkəzi Gümrü şəhəri, İrəvan- mərkəzi İrəvan şəhəri, Naxçıvan- mərkəzi Naxçıvan şəhəri, Sürməli-mərkəzi İqdır şəhəri; Şərur-Dərələyəz-mərkəzi Baş-Noraşen kəndi, Üçmüəzzin- mərkəzi Sərdarabad olmaqla təqribən 1,5 milyon nəfərə qədər əhalini əhatə edir.

Qərbi Azərbaycan toponimlərinin müəyyən qisminin yer tapdığı Rusiya imperiyasının Tiflis şəhərində yerləşən Qafqaz Hərbi Dairəsi Hərbi Topoqrqfiya bölməsi tərəfindən hazırlanaraq Sankt-Peterburq şəhərində çap edilən "Cənuhi Qafqaz. 1903-cü il" xəritəsi həmin məkanın onomostik güzgüsüdür. O güzüdə Qərhi Azərhaycan ərazilərinə Çubuqlu-Toxluca-Ağbulaq kəndləri boyunca, Çaykənd, Dilican, Əmirxeyir, Çəmhərək, Gölkənd, Polad Ayrım kəndlərinə keçməklə qədəm basırıq. Yuxarı Əskipara, Sofulu və Barxudarlı kəndlərini adlayaraq Qaraqoyunlu dərəsinə, oradansa Basarkeçər nahiyəsinə daxil olur, Şərur-Dərələyəz, ardıcıl olaraq Ələyəz dağ silsiləsinə, oradansa Ağbaba və Şörəyel mahallarına çatırıq. Bunlar Zəngəzur dağ silsiləsindən başlayan xəttdir: Qaladaş və Bəyboğan sıra dağları, Qısırdağ silsiləsi, Canıyandıq dağı, Göyəm dağı, Gərni dağı, Zəngi yayalası, Qapıcıq zirvəsi, Gilan və Oxçu çayları boyunca uzanır, Gümrü-Göyçə-Pəmbək zolağından keçərək Arpaçayın aşağı yatağına, oradansa Törəgən, Alaca, Afşar, Böyük Yağnı, Kiçik Yağnı, Üçtəpədə nəfəs dərir. Oradansa Gözəldərə dağını dolanır, Allaçöl gölünü adlayaraq Yamanqan dağına yetişir, Sadanağ kəndi yaxınlığındakı Oğruca

dağına, daha sonra Sarıcallı kəndi yaxınlığındakı Kirgitdağına yetişir, Ackəsər dağını adlayaraq Qaraxaç aşrımından düşürük. Buradan Axısqa türklərinin əsrləcə məskunlaşdığı yerlərə "əl uzatsan, çatacaq qədər" məsafə var.

Ermənilərin bu saxtakarlığını ifşa edən arxiv materialları çoxdur. 1903-cü ilə aid olan coğrafi xəritə erməni iddialarını alt-üst edir. Söhbət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2012-ci il tarixli Sərəncamına əsasən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Azərbaycan, rus və ingilis dillərində nəşr olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsindən gedir. Xatırladaq ki, "Karta Kavkazskoqo Voennoqo Okruqa 1903-qo qoda" xəritəsi ümumilikdə bütün Qafqazı əhatə edir. 1903-cü ildə Qafqaz Hərbi Dairəsinin litoqrafiya və hərbi topoqrafiya şöbəsində tərtib olunub. Xəritə XX əsrin lap başlanğıcında nəşr edildiyi üçün bədnam qonşularımızın əsassız iddialarına cavab vermək məsələsində mühüm əhəmiyyətə malikdir. Xəritəyə baxan hər kəs görür ki, indiki Ermənistanın bütün toponimləri Azərbaycan-türk mənşəlidir.

Tarixi sənədlərə nəzər salsaq görərik ki, onlar İrəvanın yaxınlığında yerləşən Molla Dursun, Kərpicli, Yeni Bəyazit, Qaraqola, Qızıldağ, Ahdağ və sair toponimlərimizi dəyişdirib. O xəritəni indiki Ermənistan ərazisilə müqayisə etdikdə görürük ki, burada erməni mənşəli tək-tük yaşayış məntəqələrinə rast gəlinir. Dağ, çay, çöl, meşə, düzəngah, el-oba adlarının 99 faizi tamamilə türk mənşəlidir. Məlumdur ki, dağ, çay adları yaşayış məntəqələrindən daha əvvəl yaranıb. Bu da bu ərazilərdə bizim babalarımızın daha erkən dövrlərdə yurd saldığını, ocaq qaladığını sübut edən faktdır.

Qaraqoyunlu dövləti zamanında bir yaşayış məskəni olan və bu dövlətin qurulmasında onun sakinlərinin əməyi az olmayan tayfalardan biri baranalılar olub. Çox əski türk qolu olan baranalılar Qərbi Azərbaycanda yaşayıb. Bir zamanlar Barana tayfasının adı ilə böyük bir rayon olub. Sonra Barana rayonunun adı dəyişdirilərək Noyemberyan rayonu adlandırılıb. Türk mənşəli toponim olan Barana o vaxt Gəncə quberniyasının Qazax qəzasının nəzdində olub. Ermənilər onun adını saxtalaşdırmaqla özlərini ifşa ediblər. Barana adını yaddaşlardan silmək onlara nəsib olmayıb. Sonra bu rayonun Əskipara kəndinin adı dəyişdirilərək əvvəlcə Sarxan, sonra isə Voskipar qoyulub. Əskipara toponiminin mənası qiymətli, qızıl pul, bahalı yer deməkdir. Aşağı Körpülü kəndinin adı isə Axtanaq edilib. Rayonun Calakənd toponimi erməniləşdirilərək Mikçnazor, God Şavar-Şavan, Qalaça Bertavan, türk kökənli Lənbəli toponimi isə Baqrataşenə çevrilib. Baqrataşen sözünün son şəkilçisi də türk mənalıdır. Şen sözü türkcə şenlik-kənd, oba, işıq gələn yer, xoşbəxtlik, abadlıq sözünün qısaldılan sinonimidir. Barananın bir addımlığında yerləşən Allahverdi rayonu isə türk-İslam mənşəli toponim olmasına baxmayaraq, ermənilər tərəfindən Tumanyan adlandırılıb.

Azərbaycan tarixində misilsiz yeri olan Göyçə mahalı Göyçə gölünün sahilləri boyu geniş bir ərazini əhatə edən yurdlarımızdandır. Bu ərazi Rusiya çarlığına müharibə yolu ilə birləşdirilənə qədər İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti zamanında Göyçə mahalı süni şəkildə beş inzibati rayona bölünüb. Onlar Çəmbərək, Basarkeçər, Aşağı Qaranlıq, Kəvər və Yelenovka rayonlarıdır. Basarkeçər adı sonradan Vardenisə çevrilib. Göyçə mahalı Azərbaycan folklorunun, aşıq sənətinin vətənlərindən biri kimi məşhurdur. Bu mahal türk mənşəli toponimlərlə zəngindir. Həmin toponimlərin əksəriyyəti dəyişdirilsə də, onların adları bədii ədəbiyyatda, yaddaşlarda yaşayır.

Yeri gəlmişkən, istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan toponimlərinin, tarixi keçmişinin araşdırılmasına böyük əmək sərf edən dəyərli alimlərimiz olub. Belə alimlərimizdən biri də filologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Həsən Mirzəyev idi. Onun 540 səhifəlik "Azərbaycan toponimləri və şivə sözləri" kitabının 250-dən çox səhifəsi Dərələyəz mahalının toponimlərinə həsr olunub ki, bu da bölgənin toponimiyasını bütövlükdə əhatə edir və ərazinin oykonimiyası, etnonimiyası, oronimiyası, hidronimiyası ilə bağlı dolğun təsəvvür yaradır.

## Qərbi Azərbaycan mədəniyyəti

Qərbi Azərbaycanda yerləşən qədim mədəniyyətlərin tədqiqi bu mədəniyyətlərin Azərbaycanda formalaşan mədəniyyətlərlə sıx bağlı olduğunu deməyə imkan verir. Paleolit dövründən başlayaraq məskunlaşdırılan bu ərazilər Azərbaycanda məskunlaşan qədim tayfaların vətəni olmuşdur. Neolit və Eneolit dövründə Qərbi Azərbaycan Azərbaycanın cənub bölgələrində və Qarabağda məskunlaşan tayfaların yaylaqları olmuşdur. Tunc dövrünün müxtəlif mərhələlərində Qərbi Azərbaycanda yayılan mədəniyyətlər Urmiya hövzəsi, Naxçıvan və Qarabağda yayılan mədəniyyətlərlə ortaq xüsusiyyətlərə malik olmuşdur.

Araşdırmalar göstərir ki, Qərbi Azərbaycanda yerləşən Göyçə mahalının tarixi qədim daş dövrünə gedib çıxır. Göyçə hövzəsində Quru Xarabadan aşkar olunan obsidian alətlər burada Paleolit dövründən yaşayış olduğunu göstərir. Lakin indiki Ermənistana qatılan Qərbi Azərbaycan torpaqlarının kimə məxsus olduğunu aydınlaşdırmaq üçün çox da qədimə getməyə ehtiyac qalmır. XIX əsr mənbələrində, xüsusilə rus tədqiqatçılarının əsərlərində Göyçə mahalındakı yer-yurd adlarının türk dilində olması bu baxımdan diqqətə layiqdir. Rus tədqiqatçısı A.A.İvanovski Rusiya hakimiyyətinə aid ərazilərin təsvirini verərkən bu ərazini "Göyçə gölü hövzəsi" adlandırmışdır. Tədqiqatçı bu sözün "Göyçə", yaxud "Göy çay" olduğunu və türk dilində mavi su anlamında işlədildiyini qeyd etmişdir. Göyçə gölü qərbdən Şorgöl, şərqdən Adtəpə burunlarının bir-birinə yaxınlaşması ilə iki qeyri-bərabər hissəyə

ayrılır. Gölün şimal-şərq sahili boyunca uzanan Şahdağ, yerli əhali tərəfindən Güney, ondan qərbdəki dağlar isə Pəmbək adlanır. Hər iki silsilə Kömürlü dağın yaxınlığından keçir. Güney silsiləsinin ən yüksək zirvələri Maralcadağ (2606 m), Soyuqbulaq (2684 m), Kirkitdağ (2749 m), Əyricə (2660 m), Qaraarxac (3057 m), Ginaldağ (3370 m) və digərləridir. Gölün cənubundan şimala doğru Qarabağ silsiləsi uzanır. Gölün cənub-qərb tərəfində Bəkləmiş, Dərələyəz, Gözəldərə, Qaraxlı, Abdul-Hassar, qərbdə Əyricə, Ağdağ, Üçtəpə və digər dağ silsilələri vardır. Bu yer adlarının siyahısını daha da artırmaq olar və bunların içərisində heç bir erməni adına rast gəlinmir. Sadəcə bəzi yer adları rus sözləri ilə əvəz edilib.

Göyçə hövzəsində yerləşən Göyhasar və Göyəm obsidian yataqları qədim dövrlərdən Azərbaycan ərazisində yerləşən I Kültəpə, Naxçıvantəpə, Uçan Ağıl, Ovçulartəpə, Zirincli və digər yaşayış yerlərində məskunlaşan tayfalar tərəfindən istismar olunub. Daha doğrusu bu yerlər Urmiya hövzəsi, Qarabağ və Naxçıvanda məskunlaşan tayfaların yaylaqları olub. Azərbaycannın Neolit dövrü tayfaları istehsal təsərrüfatının yüksək səviyyədə mənimsəmişdilər. Köçmə maldarlıqla məşğul olan bu tayfalar qonşu ərazilərlə əlaqə saxlaya bilmiş, Göyçə və Zəngəzuradək gedib çıxmışdır. Göyçə hövzəsinin və Zəngəzur obsidianlarının bu tayfalar tərəfindən istifadə olunması bunu təsdiq edir. I Kültəpə sakinləri Göyçə obsidianından e. ə. VII minilliyin ikinci yarısından başlayaraq istifadə etmişlər.

Obsidian yataqları Naxçıvanda və Şimal-Qərbi İranda yoxdur. I Kültəpə sakinləri başlıca olaraq Zəngəzur (49%) və Göyçə hövzəsində yerləşən Göyhasar (50%) obsidianından istifadə etmişdir. Naxçıvantəpədəki obsidian alətlərin araştırılması Göyçə, Zəngəzur və Şərqi Anadolu obsidianından istifadə olunduğunu göstərmişdir. Son araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Zəngəzur obsidianı üstünlük təşkil edir. Digər yataqların obsidianlarından isə olduqca az istifadə edilmişdir. Qarabağda yerləşən Çalağantəpə və Töyrətəpə yaşayış yerlərin sakinləri də Göyhasar obsidianından istifadə etmişdir. Qeyd etmək lazımdır ki, I Kültəpə yaşayış yeri Göyçə obsidianından istifadəyə görə Cənubi Qafqazda xüsusilə üstün mövqeyə malikdir.

Bədxah qonşularımız uzun müddət, xüsusilə Sovetlər dövründə Azərbaycanın cənub bölgələrində yayılan mədəniyyətləri öz adlarına çevirməyə çalışmış, abidələrin və mədəniyyətlərin adlarını belə saxtalaşdırmışlar. Neolit dövrünə aid olan Mahaltəpə və Xatunarx yaşayış yerlərini uyğun olaraq Arataşen və Aknaşen adlandırmışlar. Orta Tunc dövründə İrəvan yaxınlığındakı Təzəkənd kəndi ilə bağlı olan “Təzəkənd mədəniyyəti”ni Karmirberd mədəniyyəti kimi qələmə vermişlər.

Lakin onların bu saxtakarlığı elm aləmində möhkəmlənə bilməmişdir. Azərbaycan tədqiqatçılarının Şərur rayonundakı Qızqala yaşayış yerində apardığı araşdırmalar Orta Tunc dövrü “Boyalı qablar mədəniyyəti” nin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan oturaq və köşmə həyat tərzini mənimsəmiş tayfalar tərəfindən yaradıldığını, Göyçə hövzəsinə doğru uzanan yalaqların Naxçıvanda yaşayan tayfaların məskəni olduğu sübut etmişdir. Qızqala

kurqanlarındakı insan skeletlərinin dişlərində götürülən izotopların analizi Orta Tunc dövrü tayfalarının Şərur rayonunda Arpaçay vadisində məskunlaşdığını, yayda Arpaçay vadisi boyunca Göyçə hövzəsinə doğru irəliləyərək bu bölgədəki yaylaqlarda məskunlaşdığını göstərir.

Son Tunc və Erkən Dəmir dövründə Qarabağ və Gədəbəydə formalaşan Xocalı-Gədəbəy mədəniyyəti Göyçə hövzəsi, o cümlədən Dilican, Lorut, Calaloğlu Zəngəzur, Xudafərin və Urmiya hövzəsini əhatə edən böyük bir regiona yayılmışdır. Bu mədəniyyətin formalaşdığı regionda yaşayan Etiuni tayfaları Urartu dövlətinə qarşı kəskin müqavimət göstərmiş, onların Azərbaycan torpaqlarını işğal etməsinə imkan verməmişdir. Yeri gəlmişkən qeyd edək ki, dünya alimlərinin araşdırmaları sübut etmişdir ki, Urartuların ermənilərlə heş bir etnik bağlılığı yoxdur. Yaxın Şərqin böyük dövlətlərindən biri olan Urartunun ilk paytaxtı indiki Suriya ərazisindəki Suqunia, sonra Arzaşkun, e. ə. IX əsrdə isə Van gölü sahilindəki Tuşpa olmuşdur. E.ə. VIII əsrdə onlar Cənubi Qafqaza yürüş edərək indiki Ermənistanda Erebuni, Teyşebani və Argiştihinili adlı üç şəhər inşa etmiş, bu şəhərlərin Aza qəbiləsindən olan yerli əhalisini köçürmüş və onların yerinə Çupani bölgəsindən olan insanları yerləşdirmişlər.

Hər hansı xalqın müəyyən ərazidə varlığını təsdiqləyən əlamətlərdən biri onlara məxsus dini-tarixi tikililərin mövcud olmasıdır. Keçmiş İrəvan xanlığı, indiki Ermənistan ərazisində islam dini VII əsrdən etibarən yayıldıgı üçün həmin ərazidə yüzlərlə məscid və digər dini ibadət yerləri mövcud olmuşdur. İrəvan xanlığınm, o cümlədən də İrəvan şəhərinin ərazisində mövcud olmuş məscidlərin hər biri memarlıq nümunəsi idi.

Şah İsmayılın əmri ilə 1510-cu ildə onun sərkərdəsi Rəvanqulu xan İrəvan qalasını tikdirərkən həm də orada məscid inşa etdirmişdi. Şah İsmayıl məscidi adlandırılan həmin məscid sonradan zəlzələ nəticəsində dağılaraq yer üzündən silinmişdir.

Ayrı-ayrı dövrlərdə səyyahların əsərlərində, tədqiqatçıların araşdırmalarında İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən “Sərdar”, “Abbas Mirzə”, “Şah Abbas” kimi məscidlərin adları çəkilir. Ayrı-ayrı adlar altında təqdim edilməsinə baxmayaraq, əslində söhbət son dövr tədqiqat əsərlərində və rəsmi sənədlərdə adı Sərdar məscidi kimi qeyd olunan dövrün nadir memarlıq abidəsindən gedir. Yəni bir məscid müxtəlif dövrlərdə müxtəlif cür adlandırılmışdır. İrəvan qalasınm çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərdə bu məscidin adı Abbas Mirzə məscidi kimi hallandırılır. Görünür, həmin məscid XIX əsrin əvvəlində vəliəhd Abbas Mirzə tərəfindən yenidən qurulduğu üçün məhz onun adı ilə adlandırılmışdır. Alman tədqiqatçısı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və Qalada olan iki məsciddən birinin (Rəcəb paşa

məscidinin) rus-yunan kilsəsinə, digərinin - Sərdar məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir.

Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 1949-cu ilə aid bir arxiv sənədində Ermənistan SSR ərazisində qeydə alınan azərbaycanlılara məxsus 15 memarlıq abidəsi haqqında məlumatlar öz əksini tapmışdır. Həmin siyahıda nə zaman inşa edildiyi, nə məqsədlə istifadə edildiyi göstərilməklə, İrəvan şəhərində 4 məscidin mövcudluğu qeyd edilmişdir. Həmin sənəddə Zal xan məscidinin 1649-1685-ci illərdə, Göy məscidin 1776-cı ildə, Sərdar məscidinin 1807-1817-ci illərdə, Hacı Cəfər bəy məscidinin isə XVIII əsrdə inşa edildiyi göstərilmişdir.

İrəvan şəhərini təsvir edən bütün səyyahların və tədqiqatçıların əsərlərində həm ölçülərinin miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi Göy məscidin adı birinci çəkilir. Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidin inşasına 1760-cı ildə başlanılmış, Hüseynəli xanın hakimiyyəti dövründə 1765-ci ildə başa çatdırılmışdı.

1988-1989-cu illərdə Ermənistandan 250 minə yaxın azərbaycanlı deportasiya edildi. Bununla da tarixi Azərbaycan torpaqlarında monoetnik erməni dövlətinin əsası qoyuldu. Məhz bundan sonra Ermənistan qanunverici orqanının qərarları ilə azərbaycanlılara məxsus yaşayış məntəqələrinin, eyni zamanda, çayların, göllərin, təpələrin adları dəyişdirilib, tarixi, maddi-mədəni irs tamamilə silindi və erməniləşdirildi. Vaxtilə azərbaycanlıların yaşadıqları bölgələrdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilərin əlinə keçib. Azərbaycanlılara məxsus 223 qəbiristanlıq, 49 məscid, 68 tarixi, 7 memarlıq abidəsi tədricən erməni vandalları tərəfindən dağıdıldı. Mütəxəssislərin bildirdiyinə görə indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycanda ermənilər 3500 tarix və mədəniyyət abidələrimizi tamamilə yox ediblər.

Qərbi Azərbaycan ölkəmizin tarixinə görə qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam – Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları var idi. XIX əsrin sonları, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə - Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. mövcud idi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni

vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. Mənbələrdə qeyd olunur ki, İrəvanda məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir.

Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

## Qərbi Azərbaycanda incəsənət

Ermənistan adlandırılan Qərbi Azərbaycan ərazisində ilk rastlaşdığımız arxaik memarlıq abidələri menhirlərdir (fransızca men-daş, hir-uzun). Zəngəzur, Vedi, Qarakilsə rayonları ərazisində menhirlərə rast gəlinir. Yerli əhali arasında onlara “qoşun daş” deyilirdi. Bu daşların türk tayfaları tərəfindən daş qoşunları (qoşun daş) adlandırılması qədim animistik təsəvvürlərin və atalar kultunun nəticəsidir. Tayfa ağsaqqallarına sözsüz tabelik və pərəstiş atalar kultunu meydana gətirmişdi. Menhir daşlarına canlı məxluq, qüdrətli, hər şeyə qadir varlıq kimi baxılırdı. Qədim idrakın ənənəvi davamı əsasında bu daşlar canlı, silahlı insan dəstəsi kimi yad edilmişdir. Zəngəzur mahalının Qarakilsə qəsəbəsində e.ə. II minilliyə aid meqalitik tikili qalıqlar mövcuddur. Onlar Azərbaycanın digər ərazilərindəki (Xocalı, Ziyarətdağ - Daşkəsən, Böyük və Kiçik Qaramurad kəndləri – Gədəbəy) menhirlərlə eyni quruluşa və xüsusiyyətlərə malikdir. Yerli əhali hələ də həmin daşları müqəddəs varlıq hesab edir.

Maraqlıdır ki, menhirlərin Azərbaycanda dəmir dövrünün sonlarında (e.ə I minilliyin sonu, b.e. ilk əsrləri) yaradılmış insan fiqurları ilə müəyyən yaxınlığı var. Şamaxı rayonunun (Xınıslı, Dağkolanı) kəndlərindən tapılmış daş heykəllərin təhlili göstərir ki, bu heykəllər vəfat etmiş döyüşçünün ruhunun sonradan gəlib onu tapması üçün qəbrinin üzərində qoyulurmuş. Eynilə, menhirlər də ölmüş döyüşçünün ruhunu simvolizə edirdi. Göründüyü kimi, Qərbi Azərbaycan ərazisindən tapılan menhirlər ilə digər ərazilərdəki qədim türk heykəllərinin ideoloji əsası eynidir. Azərbaycan ərazisində yaşayışın ən qədim izlərini həm də qayaüstü təsvirlərdə axtarmaq doğru olardı.

Zəngəzur mahalının Qarakilsə və Loru mahalının Soyuqbulaq kəndi yaxınlığındakı Armudlu və Qaçaqqırılan dərələrində e.ə V-IV və e.ə III-II minilliklərə aid qayaüstü təsvirlər vardır. Həmin qayaüstü təsvirlərin Qobustan, Şüvəlan (Abşeron), Gəmiqaya (Naxçıvan MR) və Kəlbəcər dağlarında aşkar olunmuş qayaüstü təsvirlərlə stillistik oxşarlığı, fiqurların plastikliyi, şərtiliyi, sxematikliyi, təsvir məkanında fiqurların düzümü, təsvirlərin (insan, at, keçi, maral, tur, pələng, canavar və s.), rəqs və ov səhnələrinin identikliyi ulu əcdadlarımızın həyat və məişətini, dünyadərkini özünəməxsus, maraqlı dillə çatdırmaqla yanaşı, Qərbi Azərbaycan torpaqlarının Azərbaycan türklərinə məxsus olduğunu aşkar surətdə sübut edir.

Soyuqbulaq kəndi yaxınlığında aşkar olunmuş təsvirlər arasında xüsusilə diqqət çəkəni şərti, sxematik və sərt konturlarla çəkilmiş, üstündə əjdaha təsviri olan maral rəsmidir. Maral təsviri bolluq və bərəkətin, əjdaha isə şər qüvvələrin rəmzi hesab olunur. Maral və əjdaha təsviri Azərbaycan incəsənətində geniş yer almış motivlərdən biridir. Hələ 1898-ci ildə rus alimi A. Bobrinski Qarabağda qazıntı işləri aparan alman dili müəllimi E.Reslerə məktubla müraciət edərək Qarabağ xalçalarında rast gəlinən "S" hərfinə bənzər naxışın mənşəyini öyrənməyi xahiş etmiş və yazmışdır: "…Mən əminəm ki, hazırda rəmzi mahiyyətli bu bəzək uzaq keçmişdə real varlığı təmsil etmişdir. Ona görə də biz bunun əcdadını canlı təbiətdə axtarmalıyıq…".

Həqiqətən də, incəsənətimizə əjdaha motivinə geniş yer verilməsi əbəs yerə olmamışdır. Bu motiv uzaq keçmişlərdə elə indi də türk dilli xalqların həyatı, məişəti, folkloru, mifologiyasında önəmli yer tutmuşdur. Hətta bu günədək ilan və əjdaha totemi ilə əlaqədar yer adlarına rast gəlinir. Naxçıvanda "İlan dağ", Qazaxda "Əjdaha qayası", Göyçə gölü ətrafındakı bir çox yerlərdə, Karvansara (indiki İcevan) rayonunun Çallı kəndində "Əjdaha yurdu", Basarkeçər rayonunun Zod kəndində "Əjdaha qayası" və s. adlanan yerlər buna misaldır. Əjdaha obrazı "Məlikməmməd", "Tapdıq", "Qara at" və s. kimi Azərbaycan xalq nağıllarında geniş yer almışdır. Bu nağıllarda əjdaha əsasən şər qüvvələri təmsil edir. Azərbaycan alimi, folklorşünası M.Ə.Seyidov göstərir ki, türkdilli xalqlar arasında yayılmış "əjdaha" sözü fars sözüdür. Türklər bu sözü əjdahadan əvvəl "buka" kimi işlədirdilər. Tədqiqatçıların fikrincə, erkən orta əsrlərdə "Buka" həm qəbilə onqonunun adı, həm də qəbilənin dini və dünyəvi rəhbərlərinə verilən ad olmuşdur. Qarabağın xovlu xalçaları, o cümlədən "Vərni" adlı xalılarda sayı 16, 20, 24-ə çatan əjdaha rəsmlərinə rast gəlinir. Stilizə edilmiş əjdaha rəsmlərindən təşkil olunan paxlava kompozisiyası sxemində toxunan, xalq arasında "Xətai" adlandırılan xalılar İstanbulda Topqapı, Xalı, Nyu-Yorkda Metropoliten, Budapeştdə Dekorativ Sənətlər Muzeyində saxlanılır. Əjdaha təsvirinin Qafqaz, İran və Anadoluda

yayılmasının səbəbi türk qəbilələrinin Orta və Mərkəzi Asiyadan qərbə doğru axını ilə əlaqədardır.

Bəzi erməni tədqiqatçıları Azərbaycana məxsus xalçalar üzərindəki ornament və təsvirləri əsas gətirərək həmin xalçaların guya ermənilərə məxsus olmasını iddia edirlər: “Xalçaçılıq sənətində analaoqu olmayan vişapaqroq (əjdaha xalçası) adlanan erməni xalçaları cürbəcürdür. Ara sahənin əsas mərkəzi erməni folklorunda xeyirxah və şər qüvvələri təmsil edən “vişap” (əjdaha) təsviridir”. Erməni sənətşünası Nonna Stepanyan özünün “Erməni incəsənəti” (1989) adlı kitabında erməni xalçaçılığından bəhs edir. Qarabağ qrupuna aid Azərbaycan xalçasının təsvirini verərək bu xalçanın 1700-cü ilə aid olduğunu qeyd edir və erməni “Qoar” xalçası kimi təqdim etməyə çalışır, lakin həmin xalçanın Qarabağ xalça məktəbinə aid olan “Çələbi” xalçası olduğunu xüsusi olaraq sübut etməyə ehtiyac duymuruq. Çünki erməni müəllif özü də xalçanın adını ingilis dilində “Gohar” olaraq göstərmişdir. Əslində isə, bu ad xalçanı toxuyan qadının adından götürülmüşdür. Qeyd etdiyimiz kimi üzərində əjdaha təsvirinə rast gəlinən həmin xalı Qarabağ xalçaçılıq məktəbinə aiddir. Azərbaycan dilində bu söz “Gövhər” yazılır, danışıqda isə “Göhər” şəklində işlədilir.

Bir sıra erməni mənbələrində üzərində səkkizguşəli təsvirlər olan xalçalardan da söhbət gedir ki, səkkizguşəli ulduzun da ermənilərdə hansı anlamı ifadə etdiyini anlamaq çətindir. Səkkizguşəli ulduz formasına ermənilərin Eçmiədzin adlandırdıqları Üçkilsə alban-türk xristian məbədinin mərkəzi günbəzinin daxilində də yer verilmişdir. Buradakı ornamental naxış və bəzəklər Azərbaycan xalçalarının kompozisiyalarını, miniatürlərin rənglərini xatırladır. İrəvan şəhərindən arxeloji qazıntılar zamanı aşkar olunmuş e.ə II-I minilliklərə aid saxsı qabların üzərində müqəddəs üçlüyün simvolu olan həndəsi naxışlara rast gəlirik.

Qərbi Azərbaycanın incəsənətindən danışarkən bu ərazilərdə təsadüf olunan daş qoç fiqurlarını xüsusi olaraq qeyd etmək lazımdır. Çünki onlar həm sayının çoxluğuna həm də qeyd olunan ərazidə, demək olar ki, hər kənddə rast gəlinməsinə, üslub xüsusiyyətlərinin müxtəlifliyinə və Qarabağ, Naxçıvan, Gəncə, Qazax, Kəlbəcər, Laçın, Lerik, Gədəbəy və Azərbaycanının başqa rayonları, Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindən tapılan qoç və at fiqurları ilə oxşar xüsusiyyətlərə malik olmasına görə diqqət çəkir və birmənalı olaraq bu ərazilərin qədim türk torpaqları olduğuna heç bir şübhə yeri qoymur. Qoç çox qədimlərdən ulu babalarımızın bolluq və qələbə simvoluna çevrilmişdir. Qoç fiqurlarına bir çox yerlərdə rast gəlinir. Xalçalardan tutmuş nağıllara, evlərin giriş qapısında asılmış qoşa qoç buynuzu, milli mətbəxinə qədər Azərbaycan xalqının həyatında, demək olar ki, qoç təsvirlərinə hər yerdə rast gəlinir. Azərbaycanın bir çox rayon və kəndlərində çəpər dirəklərinə, eyvanların sütunlarına, bərəkət və qüvvət rəmzi olaraq qoç buynuzlarının bərkidilməsi adəti indi də saxlanılmaqdadır. Urud

kəndindəki 1578-ci ilə aid daş qoç fiqurunun dekorativ bəzəkləri diqqət cəlb edir. Göyçə mahalının Zod kəndindəki "Beş daş" adlandırılan yerdə beş ədəd daş qoç fiquru var idi. Həmin fiqurların üzərində oyma üsulu ilə işlənmiş həndəsi naxışlara rast gəlinirdi.

Qərbi Azərbaycan incəsənətinin ən maraqlı nümunələri divar rəngkarlığı sahəsində öz əksini tapmışdır. Klassik poeziya və müxtəlif dövrlərdə ölkəmizdə olmuş səyyah, rəssam və alimlərin rəsm və yazıları, XIV-XVII əsr miniatürlərində rast gəlinən divar bəzəkləri və digər faktlar bu sənətin Azərbaycanda qədim tarixə malik olduğunu, ornamental naxışlarla bərabər, həm də süjetli təsvirlərin mövcudluğunu, bədii üslub xüsusiyyətlərinə görə miniatür sənətinin təsiri altında inkişaf etdiyini sübut edir.

Ermənilər tərəfindən məqsədli şəkildə məhv edilmiş İrəvan sərdarı Hüseynqulu xanın sarayındakı divar rəsmləri bizim üçün böyük önəmə malikdir. Sarayın, xüsusən güzgülü zalın memarlıq quruluşu və dekorativ tərtibatı öz orijinallığı, zənginliyi ilə hamını valeh edirdi. Sarayın divarlarında, xüsusən güzgülü zal və şəbəkəli yay pavilyonunda müxtəlif ornament motivləri, gül-çiçək dəstələri, heyvan və quş təsvirlərindən ibarət dekorativ kompozisiyalarla bərabər məişət səhnələri və Ə.Firdovsinin "Şahnamə" əsərindən götürülmüş qəhrəmanlıq epizodları da təsvir olunmuşdur.

Qərbi Azərbaycan incəsənətindən bəhs edərkən XIX əsrdə yaşamış görkəmli Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin (1825–1875) adını çəkməmək mümkün deyil. Mirzə Qədim portret və ornament ustası olmuş və Azərbaycanda realist dəzgah və monumental boyakarlığın inkişafında böyük rol oynamışdır.

Yaradıcılığının ilk dövründə o, əsasən, dekorativ sənət sahəsində fəaliyyət göstərmiş, divar rəsmləri və bədii tikmələr üçün rəsm və trafaretlər çəkmişdir. Onun bu qəbildən olan əsərlərində stilizə edilmiş nəbati ornamentlər, mürəkkəb kompozisiyalar əks olunur. Qızılgül, zanbaq və s. kimi, gül və çiçəklərin, müxtəlif quşların canlı, real təsviri verilir. Mirzə Qədimin bu əsərləri bədii formanın həllinə görə klassik miniatürlərdən fərqlənir. Bu da milli təsviri sənətimizdə Avropa təsviri sənətinin realistik təsvir metodlarına müraciət olunduğunu göstərir. Mirzə Qədim dekorativ səpkili ornamental-bəzək kompozisiyaları ilə yanaşı, kağız, şüşə və güzgü üzərində tempera və yağlı boya ilə bir neçə portret çəkmişdir. Bu əsərlər, o cümlədən "Süvari", "Rəqqasə" və "Dərviş" adlı portret əsərləri koloritinə görə şərti dekorativ, obraz həllinə görə sxematik planda işlənmişdir. Mirzə Qədim İrəvaninin yaradıcılığının son püxtələşmə dövrünü hazırda məlum olan ən qiymətli əsərlərinin yaradılması dövrü kimi xarakterizə etmək olar. "Oturmuş qadın", "Vücuulla Mirzə", "Şah Tələt" (Gürcüstan İncəsənət Muzeyi), "Molla", "Şərq qadını", "Naməlum qadın", "Oturmuş qadın" (bu əsər XIX əsr rəssamın "Qacar üslubu"nda yaradılmış ən qüvvətli əsəri hesab olunur), "Şahzadə arvadı ilə", "Şah və vəziri" və s. kimi

əsərləri bu dövrdə yaradılmışdır. Həcmlik, zəif də olsa, işıq-kölgə təzadı, xəfif rəng keçidi və perspektiv qanunlarından istifadə Mirzə Qədim İrəvaninin müasir formalı realist boyakarlığın bəzi xüsusiyyətlərinə yiyələndiyini sübuta yetirir.

Məlumdur ki, indiki Ermənistan ərazisi, xüsusən İrəvan, Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar və digər mahalları çoxsaylı alban və müsəlman abidələri ilə zəngindir. “Burada 150-ə yaxın (dəqiq 147) iri və xırda məscidlər, qəbirlər, onlarla karvansara, qalalar, hamamlar, daş körpülər və bazarlar olmuşdur.” Onlara Qərbi Azərbaycan incəsənətini öyrənməyə imkan verən olduqca maraqlı abidələr, məzar daşları, at, qoç fiqurları və onların üzərindəki təsvirləri misal göstərə bilərik.

Zəngəzur mahalının Qafan rayonunun Yuxarı Girətağ kəndində yerli türk əhali arasında Beldaşı adlı ilə tanınan daş-abidənin belində uzun bir ox şəkli həkk edilmişdir. Daşın bir üzərində əlində nizə, çiynində kaman olan atlı təsvir olunmuşdur. Atlı əlindəki nizəni atın ayaqları altında çabalayan əjdahanın ağzına yeritmişdir. Daşın digər üzərində də ov səhnəsi təsvir edilmiş, ovçu əlindəki silahla dağ keçisini nişan almışdır. Ondan yuxarıda su kuzəsi və qalxan şəkilləri verilmişdir. Bundan bir qədər aşağıda isə ikinci qalxan təsviri oyulmuşdur. Bütün bunlar bir daha sübut edir ki, Qərbi Azərbaycan torpaqları Azərbaycan türklərinə məxsusdur. Elə Urud kəndində olduğu kimi, Girətağ kəndində də ermənilərin ilk gəlişi 1988-ci ildə Azərbaycan türklərinin deportasiyasından sonra olmuşdur.

Göyçə mahalının Kəvər rayonunun Hərədüz kəndi qəbiristanlığında alban-türk xristian məbədi və qəbrüstü abidələr vardır. “Hərədüz məbədi IX yüzildə inşa edilmiş, sonra məbədin şimal tərəfində böyük qəbiristanlıq yaranmışdır. Bu qəbiristanlıqda XIII əsrə aid xaç daşlar ilə XVI əsrin əvvəllərinə aid müsəlman qəbirüstü sənduqələrin yanaşı olması bölgədə yerli əhalinin Ərman (ərmən) — türk əhalinin xristianlıqdan müsəlmanlığa keçidinin məhz XIII yüzilliyin sonları- XIV yüzilliyin əvvəllərinə təsadüf etdiyini təsdiqləyir.” Hərədüz qəbiristanlığındakı sənduqə tipli məzar daşlarından birinin yan tərəfində qarşı-qarşıya dayanmış iki əjdaha təsvir edilmişdir, digər tərəfdə isə ərəbcə “Bu məzar Allahın mərhəmətinə yüksəlmiş mərhum şəhidindir. 704-cü il” sözləri yazılmışdır. Tarixi mənbələr sübut edir ki, buraya ermənilər ümumiyyətlə 1830-cu illərdə köçürülmüşlər.

Qərbi Azərbaycan incəsənətində olduqca önəmli yerlərdən birini də üstü yazılı daş plitələr (stellalar) tutur. Loru, Qırxbulaq və Zəngəzur mahallarında, Alagöz dağının ətəklərində belə stellalar geniş yayılmışdır. Bir çox tədqiqatçılar arasında həmin daşları qəbirüstü abidə hesab edənlər də var, buna şübhə ilə yanaşanlar da… Lakin bu daşların təyinatı hələlik mübahisə obyekti olaraq qalır. Əsasən, hündür, düzbucaqlı şəklində olan bu dikili daşlar daş altlıq üzərində ucalır. Onların üzərindəki süjetli kompozisiyalar İslam dinini qəbul etmiş yerli türk əhalisinin bütpərəstliyə, şamanizmə tapınmasından irəli gələn motivləri əks etdirir.

Dərələyəz mahalının Keşişkənd rayonunda Ələyəz kəndindən təqribən 600–700 metr Həsənkəndi istiqamətində müsəlman-türk məbədi var idi. Zaviyənin giriş hissəsindən götürülmüş, üzərində üç müqəddəs varlıq – yer, ay və günəşin rəmzi olan üç dairə və hər dairədə 12 imamın rəmzi kimi 12 xətt və səkkizgüşəli ulduzlar həkk olunmuş 2,5 metr hündürlüyə, 1,4 metr enə malik olan daş lövhənin üzərində ermənilər sonradan xaç təsviri oyaraq erməni abidəsi kimi təqdim etməyə çalışmışlar.

İrəvan şəhəri tarixən Qərbi Azərbaycanın mühüm iqtisadi, siyasi və mədəni mərkəzi olmuşdur. Şəhərdə və onun ətrafında xalq yaradıcılığı, dekorativ-tətbiqi sənətin müxtəlif növləri geniş yayılmışdı. İrəvanda müxtəlif sənətkar məhəllələri mövcud idi. Yerli sənətkarlar - dulusçular, toxucular, boyaqçılar, misgərlər, zərgərlər və başqalan Azərbaycanın və Şərqin digər bölgələri ilə müntəzəm sənət əlaqələri saxlayırdılar. İrəvan sənətkarlarının hazırladıqları məmulatlar Azərbaycan hüdudlarından kənarda da yüksək qiymətləndirilirdi. Əsrlər boyu davam edən sənət ənənələri xalq içərisində yaşamış, son onilliklərə qədər davam etmişdir.

Üslub və bədii kompozisiya baxımından İrəvan divar boyakarlığı Azərbaycan və orta Şərq ölkələri incəsənəti ilə oxşar cəhətlərə malikdir. Miniatür boyakarlığına xas olan şərti kompozisiya həlli, əlvan və parlaq rənglərdən istifadə, ənənəvi mövzu və süjetlərin (“Şahnamə”, “Leyli və Məcnun” motivləri, realist mənzərə və məişət təsvirləri, portretlər, eləcə də fantastik süjetlər, xeyirin şərlə mübarizəsini əks etdirən rəmzi xarakterli kompozisiyalar, gül və quşlardan ibarət lirik pannolar və s.) əks olunması İrəvan divar boyakarlığını Azərbaycanm digər məktəbləri ilə, xüsusən Təbriz məktəbi ilə yaxınlaşdınr. Divar boyakarlığının yaradılmasında, əsasən, tempera və yağlı boyadan istifadə olunurdu. Ənənəvi olaraq ictimai və dünyəvi tikililərdə divar boyakarlığı süjetli görüntülərlə, dini tikililərdə isə oynaq və ritmik kompozisiya həllinə malik həndəsi omamentli təsvirlərlə təmsil olunurdu. Süjetli təsvirlərin ən kamil nümunələri İrəvan Sərdar sarayında yerləşirdi, monumental təsvirlərin zəngin nümunələrinə isə Göy məsciddə rast gəlinir.

Sərdar sarayı İrəvanda inşa olunan ən böyük saray hesab olunurdu. Saray zəngin interyer və eksteryer bəzəklərinə malik idi. İnteryerdə, əsasən, yağlı boya və tempera ilə işlənmiş süjetli və süjetsiz kompozisiyalar, tarixi və mifoloji şəxsiyyətlərin, dövlət və hərb xadimlərinin portretləri yerləşirdi. Arasahələr isə şirli kaşı tavacıqları və bir-birinə nəzərən müxtəlif bucaq altında yerləşdirilib (işığı fərqli bucaqlar altında əks etdirərək zəngin optik təəssürat yaratmaq üçün) ritmik kompozisiya əmələ gətirən güzgü hissələri ilə bəzədilmişdi. Eksteryer bəzəklərinə gəlincə, burada kaşıkarlıq sənəti nümunələri üstün idi. Şirli və şirsiz kaşı plitələrinin (bir üzü kaşı ilə örtülən bişmiş kərpiclərin) növbəli düzülüşü sadə həndəsi formalar - romb, düzbucaqlı, haşiyə və s. əmələ gətirirdi. Həndəsi formaların asketik sadəliyinə baxmayaraq, onlar zəngin dekorativ işləmələrlə bir neçə qat bəzədilirdi.

XIX əsrdə İrəvan Sərdar sarayının interyerində təmir bərpa işləri aparılmış, buraya yeni rəsmlər, portretlər əlavə olunmuşdu.

İrəvandakı dini abidələrin bədii tərtibatında Göy məscid xüsusilə seçilir. Onun müasir eksteryerində kvadratformalı üzlük şirlənmiş kaşı tavacıqlarından dekorativ tərtibat vasitəsi kimi istifadə edilmişdir. Əsasən, ağ, mavi, göy, sarı və qəhvəyi rəngdə olan tavacıqlar bir-biri ilə ahəngdarlıqla qovuşaraq ritmik həndəsi omamental kompozisiya həlli əmələ gətirirlər. Həndəsi kompozisiyalı kaşı bəzəklərindən Göy məscidin dövrümüzədək mühafizə olunmuş yeganə minarəsinin bəzədilməsində də məharətlə istifadə edilmişdir. Minarənin qiblə istiqamətində, şərəfənin altında divara şirli kaşı ilə yazılmış “Allah” sözü bərkidilmişdir. Həmçinin şərəfənin qapısı üzərində eyni üsulla “Ya Əli” sözləri bənd edilib.

İrəvan Azərbaycan teatrı milli səhnə sənətimizin tarixi salnaməsində xüsusi yer tutur. Özünün yaradıcılıq və üslub forması olan, mürəkkəb, ziddiyyətli proses keçən İrəvan teatrını iki mərhələdə təqdim edib öyrənmək lazımdır. Teatrın yaradıcılığının birinci mərhələsi həvəskarlıq fəaliyyəti ilə bağlıdır. İkinci mərhələni isə kollektivin Dövlət Azərbaycan Dram Teatrı kimi yaradıcılıq prosesi müəyyənləşdirib. Vaxtilə eyniadlı Azərbaycan xanlığının mərkəzi olmuş İrəvan şəhəri XIX əsrdə azərbaycanlıların iri mədəniyyət mərkəzlərindən biri idi. 1870-ci illərdə şəhərdə türk-rus dillərində məktəblər açılmışdı, vaxtaşırı şeir-sənət məclisləri, musiqi axşamları keçirilirdi. Novruz, Qurban və Orucluq bayramlarında meydan tamaşaları, "Kosa-kosa", "Qaravəlli" və müxtəlif mərasim oyunları göstərilirdi.

1988-ci ildən erməni millətçilərinin Qərbi Azərbaycanda soydaşlarımıza qarşı törətdikləri vəhşilik və etnik təmizləmə nəticəsində əmlakı əlindən alınmış teatr Neftçala rayonuna qastrol səfərinə göndərilmək adı ilə İrəvandan deportasiya olunmuşdur. Lakin belə sınaqlara dəfələrlə sinə gərmiş və ruhdan düşməmiş teatr yaşamaq haqqını və iqtidarını bu dəfə də sübut etmişdir. Bu dövrdə kollektiv bünövrəsinə qədər dağılmış öz məbədini bir neçə ildə yenidən dikəltmişdir. 1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıdıb zəruri tədbirləri gerçəkləşdirdikdən sonra – 1995-ci ildə İrəvan Teatrının ikinci dəfə dövlət statusu ilə Azərbaycanda peşəkar yaradıcılıq meydanına qayıtmasını da təmin etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2006-cı il tarixli sərəncamı ilə teatrın 125 illik yubileyi ölkəmizdə dövlət səviyyəsində qeyd edilmiş, 2007-ci il oktyabr ayının 16-da Bakıda təntənəli mərasim keçirilmişdir. Ölkə başçısının növbəti sərəncamı ilə teatrın bir qrup sənətkarına fəxri adlar verilmişdir. 2008-ci il fevral ayının 8-də möhtərəm İlham Əliyevin növbəti qayğısına əsasən, M.Rəsulzadə adına Mədəniyyət Sarayı C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının balansına verilmişdir.

# Qərbi Azərbaycanda folklor

“Qərbi Azərbaycan” etnik-mədəni arealı ümumazərbaycan etnomədəni sisteminin üzvi tərkib hissəsi olsa da, bu termin altında nəzərdə tutulan coğrafi ərazidə – indiki Ermənistan Respublikasında yaşayan soydaşlarımız son iki yüz ildə dəfələrlə deportasiya və soyqırımlara məruz qalmış, əcdadlarımızın minilliklər boyu burada yaratdığı milli-mənəvi dəyərlər qəddarcasına dağıdılmış, acgözcəsinə talanmış, xaincəsinə mənimsənilərək böyük bir hissəsi erməni tarixinə, erməni mədəniyyətinə, erməni folkloruna identifikasiya olunmuşdur.

Bununla belə, Qərbi Azərbaycan folklorunun nəinki şifahi, həm də ayrıca yazılı qaynaqları var və onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qərbi Azərbaycan ərazisində müşahidə olunan epiqrafik abidələr və onlarda əks olunmuş folklor motivləri;
2. Ayrı-ayrı dövrlərdə yaşamış səyyah və tarixçilərin əsərlərində rastlanan və bilavəsitə və ya dolayısı ilə Qərbi Azərbaycanın ərazisi ilə bağlı olan əfsanə və rəvayətlər;
3. Hər hansı bir vəsilə ilə yazıya köçürülmüş folklor nümunələrinin yer aldığı yazılı ədəbiyyat nümunələri;
4. Erməni mənbələrində istifadə olunan Azərbaycan folklor obraz, motiv və süjetləri.

Tədqiqatlar sübut edir ki, Qərbi Azərbaycan ərazisindən indiyə qədər onlarla epiqrafik abidə üzə çıxarılmışdır ki, onlardan bir qismi qədim arami əlifbası ilə türk və yəhudi dillərində, digər bir qismi yunan və latın əlifbaları ilə yunan və latın dillərində, başqa bir qismi isə elm aləmində “Orxon-Yenisey” əlifbası kimi tanınan əlifba ilə türk dilində qələmə alınmışdır. Arami əlifbası ilə yazılmış epiqrafik abidələrdən ən azı 3-nün qədim türk dilində olduğu məlumdur. Bunlardan ikisi Artaksi (Artaşes) adlı məliyin Göyçə gölü yaxınlarından tapılmış iki sərhəd daşı üzərində cızılmış eyniməzmunlu yazısıdır ki, həmin daşlar hazırda Ermitajda saxlanılır. Loru mahalının Cücəkənd kəndindən tapılan üçüncü yazı isə oradakı “Həqiqətin torda gizli saxlanması comərdliyə ziyan vurar” məzmununda olan atalar sözü folklorşünaslıq baxımından daha böyük önəm daşımaqdadır. Daha bir önəmli yazılı qaynaq Mehri (Meğri) rayonu ərazisində, Nüvədi kəndi yaxınlığındakı Qarqadaşı dağında cızılmış runik türk yazısıdır.

Qərbi Azərbaycan folklorunun yazılı qaynaqları içərisində ayrı-ayrı dövrlərdə yaşamış səyyah və tarixçilərin əsərlərində rastlanan və Qərbi Azərbaycanın ərazisi ilə bağlı olan əfsanə və rəvayətlər də önəm daşımaqdadır. Onlardan biri XI əsrdə yaşamış gürcü tarixçisi Leonti Mrovelinin “Kartli çarlarının həyatı” adlı salnamədə Həzrət Nuhun oğlu Yafəsin övladlarından biri, gürcü mənbələrində adı Torqom (Torqomos), yəhudi və xristian mənbələrində, o cümlədən erməni və alban

mənbələrində Toqarma, müsəlman mənbələrində isə Türk kimi çəkilən şəxsdən söhbət açılır və onun nəslinin ata yurdu kimi Böyük Ağrı dağıyla Kiçik Ağrı dağı arasındakı ərazi göstərilir. Bunu Qərbi Azərbaycandan toplanmış əfsanələr də təsdiq edir.

Qərbi Azərbaycan folklorunun yazılı qaynaqları içərisində Əbubəkr ət-Tehrani əl-İsfahaninin "Kitabi-Diyarbəkriyyə"si xüsusi yerə sahibdir. Əsərin müəllifi, Uzun Həsənin böyük babası – Ağqoyunlu dövlətinin banisi olan Qara Yülük Osman bəyin nəsil şəcərəsini araşdıraraq 52-ci babada Oğuz xaqana çatdırır. Oğuz xaqanın başçılıq etdiyi dövlətin əhatə etdiyi əraziləri sadalayır və nəhayət, onun (Oğuz Xaqanın) Göyçə dənizi ətrafında vəfat etdiyini yazır. Əbubəkr Tehrani Oğuzun nəvəsi Bayandur xan haqqında daha maraqlı məlumat verərək göstərir ki, Bayandur xan "Qarabağ qışlağına və Göyçə dəniz yaylağına" yollanır. Burada böyük qurultay çağırır, çoxlu camaat yığır, əzəmətli məclis qurur, çoxlu qızıl və gümüş, beş yüz naxışlı kəmər və kəmərlərin üstündə qızıl və gümüş qılınclar bəxşiş edir və nəhayət, məmləkətini öz övladları arasında onların qabiliyyətlərinə görə bölüb "bir neçə gündən sonra Allahın dəvətini qəbul edib".

Bu söylənənlər Qərbi Azərbaycanın "Oğuznamə"lərin formalaşma və yayılma araealına daxil olduğunu, yerli folklor ənənələrinin, xüsusən də oğuzlarla bağlı əfsanə və rəvayətlərin yazılı qaynaqlar üçün etibarlı mənbə olduğunu göstərir.

Vaxtilə İrəvanda olmuş Jan Taverniye, Jan Şarden, Kerr-Porter, Ceyms Morier, Kameron, Lord Linç və başqa Avropa səyyahları da öz qeydlərində Qərbi Azərbaycanın folkloru barədə məlumat vermişlər. Bunlardan İrəvan bəylərbəyini Çuxursəəd bəylərbəyliyi adı ilə təqdim edən Jan Şarden Şərur sultanlığının, Naxçıvan xanlığının onun tərkibində olduğunu göstərir. Həm də İrəvanda heç bir erməni ailəsinin yaşamadığını bildirir.

Tədqiqatlar sübut edir ki, məlum səbəblərdən Şimali Azərbaycanın hər yerinə səpələnmiş qərbi azərbaycanlıların söz yaddaşını yaşadan folklor informatorları lokal və regional şəraitdən asılı olaraq fərqli coğrafi mühitə düşdüklərindən, ənənəvi məişətdən uzaqlaşır, yaddaşlar getdikcə zəifləyir. Çünki folklor öz regional mühitində funksional ola bilir. Mühitdən qopandan sonra isə o, çox sürətlə passiv fona keçir. Bununla belə, Qərbi Azərbaycandan didərgin salınaraq Azərbaycanın müxtəlif bölgələrinə səpələnmiş yerli xalqın kompakt şəkildə yaşadıqları bölgələrə təşkil edilən elmi ekspedisiyalar zamanı hələ də yaddaşlardan silinməyən zəngin materiallar toplanmışdır.

Qərbi Azərbaycan folklorunda tarixi yaddaşın və epik təfəkkürün semantikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar sayəsində aşağıdakılar müəyyən edilir:

Azərbaycanın bütün bölgələrinin folklorunda olduğu kimi, Qərbi Azərbaycan folkloru da toponimik əfsanələrlə zəngindir və onlar özlərində əski yurd yerlərimizin

adlarını əbədiləşdirməklə həmin ərazilərin tarixən türklərə məxsusluğunu birmənalı şəkildə təsdiqləyir. Qərbi Azərbaycan folklorunun etnoregional xüsusiyyətləri araşdırılarkən müəyyən olunur ki, Qərbi Azərbaycanın yerli əhalisinin zəngin təxəyyülünün məhsulu olan folklor, mif və əsatirlər, nağıllar, poetik nümunələr burada yurd salmış insanların həm də dünyagörüşünün göstəricisidir. Bu bölgədə ənənəvi türk dünyagörüşünü əks etdirən mif və rəvayətlərdən başqa, hər bir coğrafi adın, müqəddəs yerin tarixçəsini özündə yaşadan hekayətlər də yaranmışdır. Ağbabadan Vedibasara, Lorudan Zəngəzura, Göyçədən Zəngibasara qədər olan ərazidə sıx yaşamış əhali tarixi kökləri çox qədimlərə gedən memarlıq, sənətkarlıq nümunələri ərsəyə gətirmişdir.

İrəvan şəhəri, Vedibasar, Zəngəzur, Dərələyəz, Ağbaba, Şorəyel, Loru, Pəmbək, Göyçə, Qaraqoyunlu, Şəmşəddin kimi bölgələr Qərbi Azərbaycanın tərkib hissəsi olmaqla bərabər, digər mahallarla da sıx əlaqədə olmuşdur. Böyük ticarət yollarının uzərində olan bu bölgəni Osmanlı dövləti ilə, şimali və cənubi Azərbaycanla, Borçalı mahalı ilə ayrılmaz tellər bağlamışdır. Şəmşəddin, Qaraqoyunlu, Dilican və Göyçə mahallarında yaşayan türklərin adət-ənənə, məişət baxımından Gəncəbasarın yerli əhalisi ilə, demək olar ki, eyni olması tarixi faktdır.

Tarixən Qarabağ xanlığının tərkib hissəsi olan Zəngəzur mahalı adətlərinə, məişətinə görə Qarabağ türkləri ilə eynilik təşkil etmişdir. Bu ərazinin qərb hissəsi Anadolu türkləri ilə qaynayıb-qarışmış, onlarla sıx əlaqədə olmuşdur. İrəvan, Vedibasar, Gərnibasar, Zəngibasar kimi ərazilərin Güney Azərbaycanın Təbriz, Xoy, Maku kimi şəhərləri ilə bağlılığı, əlaqələri də bir faktdır və s. Bu, istər şivələrdə, istərsə də sənətkarlıq nümunələrində, adətlərdə özünü qabarıq şəkildə göstərir. Zəngin mədəni irsi, folkloru, ədəbiyyatı və musiqisi ilə seçilən bu bölgə bütöv Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Ayrı-ayrı bölgələrin keçdiyi tarix, mədəni irs, toponimlər də onun ümum-Azərbaycan tarixi və mədəniyyəti ilə birbaşa bağlılığını göstərir. Coğrafi-siyasi termin kimi ötən əsrin sonlarından etibarən işlənməyə başlayan “Qərbi Azərbaycan” anlayışından törəmə olan “Qərbi Azərbaycan folkloru” anlayışı Azərbaycan folklorşünaslığının yeni istiqamətidir. Həm bütövlükdə Azərbaycan, həm də ümumtürk folklorunun ayrılmaz tərkib hissəsi, başqa sözlə, məhəlli variantı olan Qərbi Azərbaycan folkloru Azərbaycan və ümumtürk folkloru kontekstindən araşdırıla bilər və araşdırılmalıdır.

Mühitlə bağlı regional xüsusiyyətlər Qərbi Azərbaycanda qeydə alınmış mərasim folklorunda, adət və ənənələrdə də müşahidə edilir. Məsələn, Novruz ərəfəsi və Novruz bayramı ölkəmizin digər bölgələrində olduğu kimi, Qərbi Azərbaycanda da geniş qeyd olunub. Əhalinin bu el şənliyinə elliklə qatılması olduqca maraqlı folklor nümunələrinin formalaşmasına gətirib çıxarmışdır. Öz qədimliyi ilə islamiyyətdən çox-çox əvvəllərlə səsləşən Qurban bayramı da Qərbi Azərbaycanda həmişə böyük təntənə ilə və regional özünəməxsusluqlarla keçirilirdi.

Ən qədim mərasimlərdən olan Xıdır Nəbini insanlar bu yaxınlara qədər qoruyub saxlamışdılar, yağışlı havalarda cavanlar qodu-qodu gəzdirirdilər.

Azərbaycanın xalq mahnı və janrlarına daxil olan tırınqı və nanayların musiqi forma xususiyyətlərinin öyrənilməsi ən aktual məsələlərdən biri kimi gündəmdə durur. Onların məzmunu incəsənət janrının bütün növlərində olduğu kimi, forma xüsusiyyətlərində də öz əksini tapır. İstər toylarda, istərsə də yığnaqlarda oxunan tırnıqların ana xəttini yurd həsrəti, ayrılıq motivləri təşkil etdiyindən tırınqılar xüsusi yanğı ilə oxunurdu.

## Qərbi Azərbaycan mətbəxi

Qərbi Azərbaycan mətbəxi öz zənginliyi, müxtəlifliyi və tarixi kökləri ilə Azərbaycan xalqının kulinariya irsində xüsusi yer tutur. Bu bölgədə formalaşmış yemək və şirniyyat adları yalnız qida nümunələri deyil, həm də xalqın həyat tərzini, təsərrüfat ənənələrini və mədəni dəyərlərini əks etdirən mühüm elementlərdir. Qərbi Azərbaycanın coğrafi mövqeyi, iqlim şəraiti və təbii sərvətləri bu bölgədə müxtəlif və dadlı yeməklərin yaranmasına şərait yaratmışdır.

Qərbi Azərbaycanın məşhur yeməkləri arasında plov növləri xüsusi yer tutur. Bu bölgədə hazırlanan plovlar müxtəlifliyi ilə seçilir və hər birinin özünəməxsus adı və hazırlanma üsulu vardır. Şirin plov, südlü plov, qovurma plov, fisincan plov kimi növlər geniş yayılmışdır. Tarixi mənbələrə görə plov hələ orta əsrlərdə saray mətbəxində xüsusi yer tutmuş, daha sonra xalq arasında geniş yayılmışdır. Qərbi Azərbaycanda plovun hazırlanması xüsusi mərasim xarakteri daşımış, toy və bayram süfrələrinin əsas yeməyi olmuşdur.

Ət yeməkləri də bölgənin kulinariya ənənələrində mühüm yer tutur. Kəbab növləri – tikə kəbabı, lülə kəbabı, basdırma kəbabı kimi yeməklər xüsusilə məşhurdur. Bu yeməklər əsasən qoyun və quzu ətindən hazırlanır və açıq odda bişirilir. Qərbi Azərbaycan əhalisinin maldarlıqla məşğul olması ət yeməklərinin geniş yayılmasına səbəb olmuşdur. Tarixi olaraq bu yeməklər köçəri həyat tərzinin təsiri ilə formalaşmış və bu günə qədər qorunub saxlanılmışdır.

Qərbi Azərbaycanın ən məşhur yeməklərindən biri də pitidir. Bu yemək xüsusi gil qablarda hazırlanır və uzun müddət bişirilməsi ilə seçilir. Piti əsasən ət, noxud və müxtəlif ədviyyələrdən hazırlanır. Bu yemək xüsusilə soyuq iqlim şəraitində yaşayan insanlar üçün qidalandırıcı və enerjiverici qida kimi istifadə olunmuşdur. Tarixi baxımdan piti qədim Şərq mətbəxinin təsiri ilə formalaşmışdır.

Düşbərə və xingəl kimi yeməklər də Qərbi Azərbaycanın məşhur yeməkləri sırasındadır. Düşbərə kiçik ölçülü xəmir tikələri ilə hazırlanır və əsasən bulyon şəklində təqdim olunur. Xingəl isə daha iri xəmir parçaları və ətlə hazırlanır. Bu yeməklər ailəvi şəkildə hazırlanır və xüsusilə qış aylarında daha çox istifadə olunur.

Onların hazırlanması həm də ailə üzvlərinin birgə fəaliyyətini təmin edən sosial prosesdir.

Dolma növləri Qərbi Azərbaycan mətbəxində geniş yayılmışdır. Üzüm yarpağı dolması, kələm dolması, badımcan dolması kimi yeməklər həm gündəlik, həm də bayram süfrələrində hazırlanır. Dolmaların içərisində istifadə olunan ədviyyələr və göyərtilər onların dadını zənginləşdirir. Bu yeməklər həm də bölgənin kənd təsərrüfatı məhsullarının bolluğunu əks etdirir.

Qərbi Azərbaycanın məşhur yeməkləri arasında dovğa da xüsusi yer tutur. Bu yemək qatıq, düyü və müxtəlif göyərtilərdən hazırlanır. Dovğa həm isti, həm də soyuq şəkildə təqdim olunur və xüsusilə yay aylarında sərinləşdirici təsiri ilə seçilir. Tarixi baxımdan dovğa qədim türk mətbəxinin ənənəvi yeməklərindən biri hesab olunur.

Şirniyyatlar Qərbi Azərbaycan mətbəxində mühüm yer tutur və bu sahədə də zəngin müxtəliflik mövcuddur. Paxlava bölgənin ən məşhur şirniyyatlarından biridir. Bu şirniyyat əsasən bayramlarda, xüsusilə Novruz zamanı hazırlanır. Paxlavanın hazırlanması çoxsaylı qatların və şərbətin düzgün tətbiqini tələb edir. Bu şirniyyat bolluq və firavanlıq rəmzi kimi qəbul olunur.

Şəkərbura da Qərbi Azərbaycanın ənənəvi şirniyyatlarından biridir. Bu şirniyyat əsasən qoz, şəkər və xəmirin birləşməsi ilə hazırlanır. Şəkərbura aypara formasında olur və Novruz süfrələrinin ayrılmaz hissəsidir. Onun hazırlanması xüsusi bacarıq tələb edir və adətən ailə üzvlərinin birgə iştirakı ilə həyata keçirilir.
Qoğal da bölgənin məşhur şirniyyatlarından biridir. Şor qoğal və şirin qoğal kimi növləri vardır. Bu şirniyyatlar əsasən bayramlarda hazırlanır və müxtəlif ədviyyələrlə zənginləşdirilir. Qoğalın hazırlanması da xüsusi mərasim xarakteri daşıyır və ailə ənənələrinin qorunmasında mühüm rol oynayır.

Qərbi Azərbaycanın şirniyyatları arasında halva növləri də xüsusi yer tutur. Un halvası, irmik halvası və digər növlər müxtəlif mərasimlərdə hazırlanır. Halva həm sevinc, həm də yas mərasimlərində istifadə olunan xüsusi şirniyyat növüdür. Bu da onun mədəni və sosial əhəmiyyətini göstərir.

Tarixi faktlara əsasən, Qərbi Azərbaycan mətbəxi müxtəlif dövrlərdə fərqli mədəni təsirlərə məruz qalmışdır. Səfəvilər və Osmanlı dövründə bəzi yemək və şirniyyat növləri zənginləşmiş, yeni ədviyyələr və bişirmə üsulları tətbiq olunmuşdur. Bununla yanaşı, yerli əhali öz ənənəvi reseptlərini qoruyaraq bu günə qədər yaşatmışdır.

Qərbi Azərbaycanın yemək və şirniyyat adları xalqın yaddaşında mühüm yer tutur. Bu adlar yalnız qida növlərini deyil, həm də xalqın tarixini, mədəniyyətini və həyat tərzini əks etdirir. Hər bir yeməyin adı onun hazırlanma üsulu, istifadə olunan məhsullar və ya yaranma tarixi ilə bağlıdır.

# Qərbi Azərbaycanda azərbaycanlı əhalinin deportasiyası və Qərbi Azərbaycan İcması

Azərbaycanlıların Ermənistandan deportasiyasının öz miqyasına və icra üsullarına görə ən dəhşətli mərhələsi 1987–1991-ci illərə təsadüf etmişdir. 1948–1953-cü illərdəki deportasiyadan fərqli olaraq, o, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi ilə eyni vaxta təsadüf etmişdi və buna görə də ağırlığı ilə fərqlənirdi. Vəziyyətin azərbaycanlılar üçün ağırlığı bununla bağlı idi ki, deportasiya azərbaycanlıların yaşadığı torpaqların tarixən ermənilərə məxsus olması iddiasına hüquqazidd əməllərlə haqq qazandırmaq istəyən Ermənistan inzibati və hüquq-mühafizə orqanlarının bilavasitə iştirakı ilə həyata keçirilirdi.

Sosial tərkibinə görə, Ermənistandan olan azərbaycanlı qaçqınların əsas hissəsini tarixi yurdlarını, ata-babalarına məxsus otlaqları, əkinə yararlı torpaqları, çəmənlikləri və s. tərk edən kəndlilər təşkil edirdi. Onların yalnız kiçik bir hissəsi kiçik sənaye şəhərlərinin və Yerevanın (İrəvanın) sakinləri idi.

Azərbaycanlılar erməni dilini bilir və ana dili olan Azərbaycan dilində olduğu kimi, bu dildə də səlis danışırdılar, lakin daimi ayrı-seçkiliyə məruz qalırdılar və hüquqları tapdalanırdı. Ermənistanda azərbaycanlılara “türk” olduqları daim hiss etdirilib.

Deportasiya başlanandan sonra Ermənistanın müxtəlif rayonlarından olan azərbaycanlıların onlarla nümayəndə heyəti, minlərlə ayrı-ayrı vətəndaş ali hakimiyyət orqanlarına, partiya və hökumət rəhbərlərinə müraciət etmiş, onlara qarşı həyata keçirilən zorakılıq aktları barədə təşviş içində məlumat vermiş, onların qarşısının alınmasını xahiş etmişdilər. 1987-1991-ci illərdə 300000-ə yaxın azərbaycanlı Qərbi Azərbaycandan deportasiya olunmuşdur. Qaçqınlar müvəqqəti olaraq keçid məntəqələrində yerləşdirilir, buradan isə gələcək yaşayış məskənlərinə göndərilirdilər. Azərbaycanlıların Ermənistandan köç etməsi ilə Ermənistanla Azərbaycan arasında münaqişənin miqyası artmışdır.

Qərbi Azərbaycan İcması 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1987-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur.

1987-1991-ci illərdə Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası ərazisinin) yalnız azərbaycanlıların yaşadığı 170-dən artıq kənddən, azərbaycanlılarla ermənilərin qarışıq yaşadığı 100-ə yaxın yaşayış məntəqəsindən (kənd, qəsəbə və şəhərdən) 49.928 ailədə 300 min nəfərədək azərbaycanlı ermənilər tərəfindən öz doğma yurdlarından zorla qovulublar. Bu zaman 200 nəfərdən çox soydaşımız erməni şovinistləri tərəfindən öldürülmüş (güllələnmiş, qəsdən avtomobil qəzasına salınmış, dağ yollarında donmuş və s.), 400 nəfərdən çox

azərbaycanlı isə yaralanmışdır. Bir çox azərbaycanlıların evləri, əmlakları yandırılmış və ya talanmış, əvəzi ödənilmədən əllərindən alınmış, mənimsənilmişdir.1987-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 minədək ailənin 20 minə qədərinə dəymiş ziyan artıq hesablanıb və hazırda bu işlər davam etdirilir.

Həmin illərdə Qərbi Azərbaycandakı 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması, vəziyyətinin müəyyən edilməsi ilə bağlı sistemli işlər görür. Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur. İcma öz fəaliyyətində indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün fəaliyyət həyata keçirən və bu fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edən, beynəlxalq hüquqa, aidiyyəti dövlətin daxili hüququna, tarixi faktlara əsaslanaraq, ədalətin və sülhün bərqərar olunmasına xidmət edən "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya-qayıdış konsepsiyası"nı qəbul etmişdir.

Konsepsiyaya görə İcma ötən iki əsr ərzində Qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi qəbul etmir və bu ədalətsizliyin nəticələrini rədd edir. İcma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılmasını və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi bəyan edir.

Konsepsiya ilə həyata keçiriləcək fəaliyyətin əsas məqsəd və prinsipləri aşağıdakılardır:

- İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların könüllü şəkildə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşmanın əldə edilməsi;
- Geriyə qayıtma prosesinin müvafiq təhlükəsizlik, humanitar, sosial-iqtisadi yardım proqramları ilə təminat altına alınması;
- Geriyə qayıtmış əhalinin yenidən qovulmasına, onlara qarşı hər hansı ayrı-seçkilik həyata keçirilməsinə və zərər vurulmasına imkan verməmək üçün beynəlxalq monitorinq, hesabatlıq, təhlükəsizlik, müdaxilə və digər zəruri fəaliyyətin bərqərar edilməsi;

- Beynəlxalq nəzarət altında yenidənqurma və barışıq tədbirlərinin həyata keçirilməsi yolu ilə, geriyə qayıtmış insanların davamlı reabilitasiya və re-inteqrasiyasının təmin edilməsi;
- Qərbi Azərbaycan İcması Qayıdış Konsepsiyanın yerinə yetirilməsində fəallıq və sahiblik göstərən, bu məqsədlə qanuni çərçivədə resursların əldə olunması üçün səylərini davam etdirən təşkilatdır.
- Qərbi Azərbaycan İcması son 200 il ərzində etnik təmizləmə, deportasiya və soyqırımlara məruz qalaraq ata-baba yurdlarından ədalətsizcəsinə qovulan soydaşlarımızın, onların varislərinin öz doğma yurdlarına geri dönmək hüququ tanınana və bu qayıdış həyata keçənə qədər mübarizəsini davam etdirəcək.